# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 29 (3445) Cümə axşamı / 28 iyul-03 avqust 2022-ci il Qiymәti 40 qәpik


MÜSAHİB

## "Rəqabət Məcəlləsi" payızda müzakirəyə çıxarılacaq



Vüqar Bayramov,
millət vəkili

*Qlobal dünyanın iqtisadi inkişaf tempi özünün gərgin mərhələsini adlamaqdadır. Dünyada müşahidə olunan iqtisadi böhranla bağlı mövcud proseslər birmənalı olaraq hər bir ölkənin həyatından keçir. Belə bir vəziyyətdə, xüsusilə də postmüharibə dövrünü yaşayan Azərbaycanın özünün iqtisadi təhlükəsizliyini təmin etməsi, əhalinin sosial təminatını yüksəltməsi üçün hansı mühüm addımları atması maraqla izlənilir, təhlil olunur. "Həftə içi"nə müsahibə verən iqtisadçı, deputat Vüqar Bayramov maraqlı fikirlər söyləyib.*

*2022-ci ilin birinci rübünün yekunları Azərbaycan iqtisadiyyatı üçün uğurlu hesab oluna bilər*

Səh. 3

# Sülh, yoxsa müharibə?!

**Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması ilə bağlı yüksək səviyyəli danışıqların növbəti raundunun keçiriləcəyi ilə bağlı anonslar verilir. Hələlik rəsmi səviyyədə elan edilməsə də, söhbət Azərbaycan və Ermənistan liderlərinin görüşünün təşkilindən gedir.**

**Qeyd edək ki, sonuncu dəfə Prezident İlham Əliyevlə Nikol Paşinyan arasında birbaşa təmaslar may ayında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Brüsseldə gerçəkləşib. Həmin görüşdən sonra bu formatda təmasların iyul-avqust ayında davam etdirilməsi razılaşdırılmışdı. Bir müddət əvvəl isə iki ölkənin xarici işlər nazirləri Tbilisidə bir araya gələrək ilk dəfə bu formatda təmas qurublar.**

**Görüş ərəfəsində Qərbin yenidən Azərbaycan və Ermənistan arasında danışıqlarda fəallığı hiss edilir. ABŞ dövlət katibi Antoni Blinken eyni gündə həm Prezident İlham Əliyev, həm də Ermənistanın baş naziri Nikol Paşinyanla danışdı.**

**Belə ki, iyulun 25-də Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Növbəti danışıqların anonsu verildi

Dövlət katibi Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edərək, Tbilisidə iki ölkənin xarici işlər nazirlərinin görüşünü və birbaşa dialoqunu müsbət qiymətləndirdiyini bildirib.

Prezident İlham Əliyev Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsini iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi qiymətləndirib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan artıq sülh müqaviləsinin hazırlanması üzrə öz komissiyasının tərkibini formalaşdırıb və Ermənistan tərəfindən də eyni addımın atılmasını gözləyir.

Antoni Blinken, həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu ifadə edib.

Söhbət zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti məmnuniyyətlə qeyd olunu.b

Sonra dövlətimizin başçısı humanitar məsələlərə toxunaraq, birinci Ermənistan-Azərbaycan müharibəsindən 3890 nəfərdən artıq azərbaycanlının itkin düşmüş şəxs hesab olunduğunu bildirib və Ermənistan tərəfinə dəfələrlə müraciət edilməsinə baxmayaraq, kütləvi məzarlıqların yerləri barədə məlumat verilməməsinə diqqəti çəkib.

Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən kütləvi şəkildə minaların basdırıldığını və müharibənin başa çatmasından bəri 240 nəfərdən artıq vətəndaşımızın mina partlayışlarında həlak olduğunu və ya sağlamlığını itirdiyini bildirib. Telefon danışığı zamanı əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Rəsmi açıqlamadan da göründüyü kimi, Azərbaycan tərəfinin sülh danışıqları ilə bağlı gözləntiləri dəyişməz olaraq qalır. Sülh prosesini irəli aparmaq üçün texniki detalların həlli sürətləndirilməli, "Zəngəzur dəhlizi"nin açılması istiqamətində real addımlar atılmalı, birinci Qarabağ savaşında itkin əsir düşmüş vətəndaşlarımız haqqında qarşı tərəf dəqiq məlumatlar verməli, minaların təmizlənməsi prosesinə dəstək artırılmalı, bir sözlə, Ermənistanın konstruktiv mövqe nümayiş etdirməsi üçün Qərbin təzyiq rıçaqları işə salınmalıdır. Qərb isə Ukrayna-Rusiya böhranı fonunda yaşanan enerji çatışmazlığında Azərbaycanın artan rolunu anlayaraq bölgədə yeni müharibə riskinin azaldılması üçün diplomatik səylərini artırmağı düşünür. Lakin bu məsələdə Qərbin nə dərəcədə Azərbaycanın qalib tərəf olaraq beynəlxalq hüquqa əsaslanan milli maraqlarına uyğun davranış ortaya qoyduğu da müəyyən suallar yaradır.

Məsələ ilə bağlı ekspertlərin də fikirləri maraqlıdır.

■ **Politoloq Elxan Şahinoğlu hafta.az-a açıqlamasında bildirib ki, Entoni Blinken il başlayandan dəfələrlə həm Bakıya, həm də İrəvana zəng edib.** Blinken rusiyalı həmkarı Sergey Lavrov qədər fəal olmağa çalışır. Buna baxmayaraq, Blinken bir məsələdə Lavrovdan geri qalır. Rusiyanın xarici işlər naziri bir neçə dəfə Bakıya və İrəvana səfər edib, Blinken isə hələ bölgəyə gəlməyib, yalnız müşavirlərinin köməkçilərini göndərib. Digər tərəfdən Entoni Blinken Paşinyanla söhbətdə "ABŞ Minsk Qrupunun həmsədri olaraq fəaliyyətini davam etdirməyə hazırdır" ifadəsini işlədib. Vaşinqton Minsk Qrupundan əl çəkmək istəmir.

Səh. 2

*Vaşinqtonun "Minsk Qrupu" israrı ABŞ-Azərbaycan münasibətlərinə müsbət heç nə vəd etmir*

*ABŞ hazırda çalışır ki, Ermənistan Kremlin orbitindən xilas olub Qərbə inteqrasiya etsin*

*Siyasi böhranlar çözülməyəndə, hərbi tənəzzül başlayır*

*Atəşkəs rejiminin pozulması Azərbaycan ictimaiyyəti və dövlətində çox ciddi narahatlıqlar yaradır*

MÜSAHİB



**Etibar Məmmədov,**
AMİP lideri

■ Hesab edirəm ki, icra hakimiyyətləri ləğv olunaraq vilayətlər və valilik sisteminə keçirilməlidir

■ Moskva öz iddialarını genişləndirəcək, ən zəif nöqtəni taparaq oradan yeni işğal prosesinə başlayacaq

■ Üzdə "Ermənistanla Azərbaycan arasında danışıqların tərəfdarıyıq" deyirlər, amma digər tərəfdən buna maneçilik törədirlər

Səh. 5

GÜNÜN FOTOSU...



**Britaniya səfiri Cəbrayılda minatəmizləməni izləyib**

GÜNÜN SİTATI

*Heç yerdə yazılmayıb ki, uşağı xarici dildə təhsilə cəlb etmək icbari məsuliyyəti, yaxud vəzifəsi var*



**Emin Əmrullayev,**
Təhsil naziri

KARİKATURA




**Mina terrorunun qurbanları artmaqdadır**

## "Dostluq" ordenini dost diqqəti kimi qəbul edirəm

**Reza Deqati,**
məhşur fotoqraf

*Prezidentin məni təltif etməsini Azərbaycanın xoş sözləri, dostluğu sayıram...*

Səh. 5

STATİSTİKA



■ **Bu il 10 minə yaxın tələbə təhsil tələbə kreditlərindən yararlanacaq.**

Ötən il pandemiya ilə əlaqədar olaraq təhsil tələbə kreditləri ilin yarısından verildiyindən təxminən 3 min tələbəni əhatə etmişdi:

2026-cı ilin sonuna qədər isə daha 25 min tələbəyə təhsil tələbə kreditinin verilməsi nəzərdə tutulur.



## Ermənilər Qafqaz xalqı deyil

Səh. 3

## PREZİDENTİN İŞ GÜNÜ



**Azərbaycan Prezidenti İlham Əliyev Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Sabunçu rayonunun Bakıxanov, Kürdəxanı, Maştağa, Ramana və Sabunçu qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 7,5 milyon (yeddi milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Maliyyə Nazirliyi sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək. Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# TANAP-ın gücü 2 dəfə artırıla bilər




**Avropa İttifaqı (Aİ) və Azərbaycan arasında imzalanmış, Avropaya daha çox təbii qaz nəqlini nəzərdə tutan memorandum çərçivəsində TANAP-ın gücü iki dəfə artırıla bilər.**

Bunu Türkiyənin enerji və təbii sərvətlər naziri Fatih Dönməz deyib. "TANAP-ın ötürmə gücü iki dəfə artırıla bilər. İllik ötürülən 16 milyard kubmetr təbii qaz 31-32 milyard kubmetrə qədər yüksələcək. Bunun üçün bəzi qabiliyyətartırma investisiyalarına ehtiyac olacaq", - nazir bildirib. Nazir qeyd edib ki, bu istiqamətdə müəyyən vaxta ehtiyac var və Türkiyə prosesdə iştirak etməyə hazırdır.

# Aİ Azərbaycanla dialoqu yüksək qiymətləndirir



**Avropa İttifaqı (Aİ) Azərbaycanla inkişaf etməkdə olan dialoqu yüksək qiymətləndirir. Bunu Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalko Aİ tərəfindən təşkil olunmuş "Avropanı nə qədər yaxşı tanıyırsınız?" intellektual müsabiqəsinə həsr edilmiş tədbir çərçivəsində deyib.**

Səfir Azərbaycanla Aİ arasında uğurla inkişaf edən əməkdaşlığı qeyd edib. "Azərbaycanın bütün regionlarından 14-26 yaşlı gəncləri bir yerə toplamaqla Aİ Avropanın tarixi, dəyərləri və mədəniyyəti barədə biliklərin genişlənməsinə çalışır, eləcə də komanda işini və analitik vərdişləri təşviq edir. Müsabiqədə iştirak üçün 555 müraciət olunub, yalnız 14 komandadan 66 namizəd müsabiqəyə buraxılıb", - deyə o bildirib.

Onun sözlərinə görə, Avropa gənclər ili çərçivəsində Aİ-nin Azərbaycandakı nümayəndəliyi "EuroVillage", Avropa yay məktəbi, Aİ Gənclər müsabiqəsi kimi tədbirlərin keçirilməsini planlaşdırıb.

P.Mixalko, həmçinin Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin, energetika məsələləri üzrə komissar Kadri Simsonun Bakıya səfərlərini, "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanmasını, xarici işlər naziri Ceyhun Bayramovun Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Cozep Borrellə görüşünü xatırladıb.

"Bütün bu görüşlər növbəti dəfə Azərbaycanla Aİ arasında münasibətlərin yüksək səviyyəsini təsdiq edir. Biz tərəflər arasında inkişaf etməkdə olan dialoqu yüksək qiymətləndiririk", - P.Mixalko deyib.

HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor: Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Sülh, yoxsa müharibə?!

◂ əvvəli 1-ci səhifədə

Halbuki, belə bir qrup yoxdur, mövcud olmayan qrupun məşğul olmaq istədiyi mövzu da gündəmdə deyil. Vaşinqtonun "Minsk Qrupu" israrı ABŞ-Azərbaycan münasibətlərinə müsbət heç nə vəd etmir, bu isə Rusiyanın maraqlarına cavab verir.

■ **Politoloq Turan Rzayevin qənaətincə isə, 44 günlük müharibədən sonra rəsmi Vaşinqtonun Cənubi Qafqaza, daha dəqiq desək, Azərbaycan və Ermənistana diqqəti xeyli dərəcədə artıb. Onun fikrincə, bu marağın artmasında davam edən Rusiya-Ukrayna müharibəsinin də payı az deyil.**

"ABŞ-ın indiki məqamda həm Ermənistan, həm də Azərbaycana dair fərqli maraqlarının olduğu Blinkenin İlham Əliyev və Nikol Paşinyanla telefon söhbətində toxunduğu məqamlardan hiss olunur. Məsələn, Ermənistan tərəfi Blinkenin Paşinyanla telefon danışığı zamanı əsasən Ermənistan - Azərbaycan və Ermənistan - Türkiyə münasibətlərini müzakirə etdiyini açıqlayıb.

Blinken Əliyevlə telefon danışığı zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti və ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyi göstərməyə hazır olması kimi məsələlər müzakirə edilib.

Yəni ABŞ indiki məqamda Ermənistanla təmasları əsasən Ermənistan-Türkiyə münasibətlərinin normallaşması kontekstində Azərbaycan ilə Avropanın enerji təminatı kontekstində formalaşdırır".

Politoloq hesab edir ki, ABŞ hazırda çalışır ki, Ermənistan Kremlin orbitindən xilas olub Qərbə inteqrasiya etsin. Bunun üçün Ermənistan-Türkiyə münasibətlərinin normallaşması ən önəmli şərtdir. "Ermənistan - Türkiyə münasibətlərinin normallaşmasına rəsmi İrəvan razıdır. Türkiyəyə gəldikdə, rəsmi Ankara topu dolayı yolla Bakının üzərinə atır. Misal üçün, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ötən gün çıxışında bu məsələ ilə bağlı qeyd etdi ki, "Ermənistanla münasibətləri Azərbaycanla razılaşdıraraq inkişaf etdiririk. Əvvəldən bizim "qırmızı xətt"imiz Azərbaycan idi. Azərbaycan məsələsi həll olunandan sonra qapımızı açacağımızı dedik. Biz Ermənistanla normallaşma prosesində ciddi və qətiyyətliyik".

**Politoloq qeyd edir ki, rəsmi Ankara bu məsələdə ənənəvi olaraq Azərbaycan maraqlarından çıxış edir. Bununla belə Ərdoğanın "Azərbaycan məsələsi həll olunandan sonra qapımızı açacağıq" deməsi sərhədlərin açılmasında Ankara da maraqlı olmasında xəbər verir. Vaşinqton isə bu mövzuda imitasiya edir.**

"Blinken-Əliyev telefon danışığında iki məqam diqqət çəkir. Birincisi, ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğu ifadə edilib. Hesab edirəm, rəsmi Vaşinqton bu məsələdə dəstəyi sadəcə iki ölkə münasibətlərinin normallaşması kontekstindədir. ABŞ üçün iki ölkə arasında gərginliyin bitməsi münasibətlərin normallaşması vacibdir. Bunun xaricindəki məsələlər, misal üçün, Zəngəzur dəhlizinin açılması Vaşinqtonun maraq dairəsində deyil. ABŞ bu məsələyə "nəqliyyat bağlantılarının və kommunikasiyaların açılması" kimi yanaşaraq imitasiya edir. Yəni o, nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasını istəyir, lakin bunun bir dəhliz halında olmasını istəmir.



## Növbəti danışıqların anonsu verildi

İkincisi, söhbət zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti qeyd olunub. Aydındır ki, ABŞ və Avropa İttifaqı gələcək beş il ərzində Rusiya qazından asılılığı sıfıra endirmək niyyətindədir. Bu istiqamətdə alternativ ölkələr ilə təmaslar intensivləşib. Azərbaycan da həmin alternativ ölkələr sırasındadır. Azərbaycanla enerji sahəsində Strateji Tərəfdaşlığa dair imzalanan Anlaşma Memorandumu da mahiyyət etibarilə buna xidmət edəcək.

Rəsmi Vaşinqton, hətta mövcud boru kəmərlərinin həcmini artırmaq, yeni layihələrin ərsəyə gəlməsi üçün investisiya maliyyə dəstəyi də təmin edə bilər".

Göründüyü kimi, Vaşinqton bölgədə yeni müharibə riskini azaltmağa çalışmaqla Avropa İttifaqının Rusiyanın enerji asılılığından azad olmaq üçün Azərbaycanla qurduğu təmasların real nəticələrinin olmasını bir an öncə istəyir. Bu məsələdə ən böyük maneə isə, yenə də Ermənistanla Azərbaycan arasında artan yeni müharibə riskidir. Rusiyanın öz maraqlarından çıxış edərək ona qarşı sanksiyalar tətbiq edən Avropa və Qərbin bu təşəbbüslərini neytrallaşdırmaq üçün bölgədə yeni yeni hərbi toqquşmalara rəvac verə biləcək addımlar atacağı da istisna deyil. Son günlərdə biz bunun açıq şəkildə şahidi oluruq.



Azərbaycan Müdafiə Nazirliyindən verilən xəbərdə deyildiyi kimi, bir gün ərzində erməni silahlı birləşmələri tərəfindən ümumilikdə 9 dəfə təxribat xarakterli silahlı insident törədilib. Erməni təxribatçıları 2 dəfə dövlət sərhədinin Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərdən Ordumuzun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atəşə tutublar.

Digər 7 insident isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Tərtər, Ağdam, Xocavənd və Xocalı rayonları istiqamətlərində yerləşən mövqelərini fasilələrlə müxtəlif çaplı silahlardan atəşə tutmaqla qeydə alınıb.

Məlumatda ən çox diqqət çəkən məqam atəşkəsin 7 dəfə pozulması halının məhz rus hərbiçilərinin nəzarətində olan ərazilərdə qeydə alınmasıdır.

■ **Hərbi ekspert Elxan Şıxəliyev hafta.az-a açıqlamasında bildirib ki, ermənilərin Qarabağ ərazisində və sərhəddə törətdiyi insident onların hadisələri tələsdirməsi fonunda qiymətləndirilməlidir.**

Hərbi ekspert qeyd edib ki, ermənilər Prezidentin 6 aylıq iqtisadi yükunlara dair iclasda bildirdiyi o qırmızı xəttlərin müəyyən edilməsinə müsbət cavab vermədi.

"Biz ermənilərin qeyri-qanuni silahlı birləşmələrini ərazilərimizdən çıxaracaqlarını gözlədiyimiz halda, əksinə Ermənistan bu bölgələrə ezam olunan hərbçilərini sentyabra qədər çıxaracaqlarına dair bəyanat verdi. Əslində bu Azərbaycanı heç də qane etməyən yanaşma idi. Ermənilər bununla demək istədilər ki, Qarabağ ərazisində qeyri-qanuni birləşmələrin yenidən təşkilatlanmasını davam etdirəcəyik. Təbii ki, bu, Azərbaycan üçün qırmızı xətdir".

E.Şıxəliyev hesab edir ki, bunun Rusiyaya yönəlik mesajı var. Bu da ondan ibarətdir ki, Rusiya üçtərəfli sazişdəki imzasına hörmət olaraq bunu təmin etməli idi. Onun fikrincə, Rusiya da buna göz yumur. Rusiya sülhməramlılarının bölgədə yerləşməsi fonunda Ermənistandan gələn bu bəyanatlar artıq siyasi böhranın sonlanmasına gətirib çıxardan bir vəziyyət kimi qiymətləndirilməlidir.

"Siyasi böhranlar çözülməyəndə, hərbi tənəzzül başlayır. İndiki atəşkəs hallarının 9 dəfə pozulması intensivlikdən xəbər verir. Ermənilər, sanki Azərbaycanı dəmir yumruğunu yenidən qaldırmağa təhrik etmək istəyirlər. Heç şübhəsiz, atəşkəs pozulacaqsa Azərbaycan bunun cavabını verəcək".

**Hərbi ekspert hesab edir ki, ermənilər Qarabağda, sərhəddə Azərbaycanın hərbi rəhbərliyinin səbrini test edirlər. Onun fikrincə, ermənilər siyasi böhranın hərbi böhrana çevrilməsinə tələsirlər.**

"Erməni adına bunu ağılla, məntiqlə çözmək çətindir. Bilirlər ki, dəhlizlərin açılması ilə bağlı vaxtın uzadılmasına Azərbaycanın səbri qalmayıb. Bunlar imitasiya edərək Zəngəzur dəhlizinin açılması, sərhədlərin tanınması, Qarabağ ərazisində qeyri-qanuni silahlı birləşmələrin mövcudluğunun zamanını uzadırlar. Düşünürəm, bu fonda Azərbaycan tərəfindən atılan addımlar çox ciddi və təsirli olacaq. Xüsusən də əgər Zəngəzur dəhlizinin açılmaması yönündə səy göstərirlərsə, o zaman Laçın niyə açıq olmalıdır?! Azərbaycan da birtərəfli qaydada Laçın dəhlizini nəzarətə götürüb, özünün nəzarət-buraxılış məntəqəsini yarada bilər. Eləcə də Ermənistan öhdəlikləri yerinə yetirməyəcəksə, Azərbaycan əsgərinin ayağı harada dayanacaqsa, bizim sərhədimiz də orda olacaq. Burada ermənilər üçün ən pis ssenarilər mövcud ola bilər. Ermənilər Rusiya sülhməramlılarına arxayındırlar. Elə bilirlər ki, istədikləri addımları ata bilərlər. Sadəcə, Azərbaycan Silahlı Qüvvələrinin vəziyyətindən xəbərsizdirlər, siyasi direktivlərimizdən xəbərsizdirlər. Düşünürəm, payız kampaniyasınadək ermənilər bizi qəti addımlar atmağa məcbur edəcəklər. Ermənilər belə davam etsə, Azərbaycan hərbi-siyasi qərarlar qəbul etməyə məcbur olacaq".

■ **Siyasi elmlər doktoru, Beynəlxalq Münasibətlər üzrə Təhlil Mərkəzinin eksperti Mətin Məmmədli isə hafta.az-a bildirib ki, ermənilərin həm Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərdə, həm Ermənistan Azərbaycan sərhədində törətdiyi təxribatlar bütövlükdə iki ölkə arasında başlanmış sülh prosesinə olduqca mənfi təsir göstərir.**

M.Məmmədlinin sözlərinə görə, xüsusilə Rusiya sülhməramlılarının nəzarəti altında olan belə təxribatçı fəaliyyət, atəşkəs rejiminin pozulması Azərbaycan ictimaiyyəti və dövlətində çox ciddi narahatlıqlar yaradır.

"Təbii ki, buna cavab olaraq Azərbaycan dövləti regionda qeyri-qanuni mövcudluğunu davam etdirən erməni hərbi birləşmələrinin ərazidən çıxarılması ilə bağlı müvafiq addımlar atmaq məcburiyyətində qalacaq. Eyni zamanda da bu gün Laçın - Xankəndi yolu Ermənistan tərəfindən dəhliz kimi istifadə olunur. Artıq həmin dəhlizin tam olaraq ölkəmizin nəzarətinə keçməsi gündəmə gətirilə bilər ki, buna ölkə rəsmiləri və prezident səviyyəsində münasibət bildirilib. Təbii ki, ermənilərin davamlı olaraq belə addımlar atması Zəngəzur dəhlizinin açılması məsələsini gecikdirir".

Siyasi ekspert hesab edir ki, erməni silahlılarının fəallaşması həm Ermənistanla, həm də ölkəmizin yerləşdiyi mürəkkəb geosiyasi vəziyyətlə bağlıdır. "Ermənilər bölgədə qeyri-stabil vəziyyətin yaranmasına səbəb olur".

*Ermənistan - Türkiyə münasibətlərinin normallaşmasına rəsmi İrəvan razıdır.*

*Ermənilər bununla demək istədilər ki, Qarabağ ərazisində qeyri-qanuni birləşmələrin yenidən təşkilatlanmasını davam etdirəcəyik.*

*Erməni silahlılarının fəallaşması həm Ermənistanla, həm də ölkəmizin yerləşdiyi mürəkkəb geosiyasi vəziyyətlə bağlıdır.*

Göründüyü kimi, hər dəfə, siyasi danışıqlar başlayan ərəfədə təmas xətlərində hərbi gərginlik artır və əsas diqqət həllini gözləyən həyati əhəmiyyətli məsələlərdən yayındırılaraq yenə də mövcud durumun sabitləşdirilməsinə yönləndirilir. Bu gedişlər 30 illik danışıqlar prosesində Azərbaycan tərəfindən daima müşahidə edilib. Lakin indiki reallıq tamamilə fərqlidir. Qalib tərəf Azərbaycandır. Rəsmi Bakı artıq bu cür erməni hiylələrinin, istər Qərbin, istərsə də Moskvanın Azərbaycan üzərindən öz şəxsi hesablaşmalarına aparmaq istəklərinin qarşısını qətiyyətlə alacaq. Prezident də bunun anonsunu açıq şəkildə verib. İndi Azərbaycan-Ermənistan arasında növbəti yüksək səviyyəli görüşdə konkret nəticələrin əldə olunması istiqamətində real addımların atılmasının vaxtı çatıb. Əks təqdirdə... Nələrin yaşana biləcəyini Azərbaycan dövləti və ordusu 44 günlük Vətən Müharibəsindəki möhtəşəm Zəfərlə bütün dünyaya nümayiş etdirdi.

✍ *Azad Əliyev*

# "Rəqabət Məcəlləsi" payızda müzakirəyə çıxarılacaq

**Qlobal dünyanın iqtisadi inkişaf tempi özünün gərgin mərhələsini adlamaqdadır. Dünyada müşahidə olunan iqtisadi böhranla bağlı mövcud proseslər birmənalı olaraq hər bir ölkənin həyatından keçir. Belə bir vəziyyətdə, xüsusilə də postmüharibə dövrünü yaşayan Azərbaycanın özünün iqtisadi təhlükəsizliyini təmin etməsi, əhalinin sosial təminatını yüksəltməsi üçün hansı mühüm addımları atması maraqla izlənilir, təhlil olunur. "Həftə içi"nə müsahibə verən iqtisadçı, deputat Vüqar Bayramov maraqlı fikirlər söyləyib.**

## Aktual

***- Vüqar müəllim, artıq Zəngilan rayonunun Ağalı kəndinə ilk ailələr köçürüldü. Bu fonda işğaldan azad olunmuş ərazilərdə sosal-iqtisadi layihələrin həyata keçirilməsi prosesinə diqqət çəksək, bunun iqtisadi göstəriciləri barədə nələri söyləmək olar?***

- 2021-22-ci illərdə dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması üçün 4 milyard 873 min manat vəsait ayrılıb. Büdcə dürüstləşməsində əlavə 470 milyon manat vəsait ayrılması nəzərdə tutuldu.

Təbii ki, böyük qayıdış başlayıb. Zəngilanın Ağalı kəndinə "Ağıllı kənd" layihəsi üzrə sakinlərin geri qayıtması prosesi bütün rayonlarımız üzrə davam edəcək.

Bəllidir ki, həmin ərazilərimiz işğal müddətində tamamilə dağıdılıb. Mən Füzuli rayonunun kəndində doğulmuşam. Füzuli şəhəri regionun böyük şəhəridir və bu gün şəhərin yerində heç nə qalmayıb. Bu ondan xəbər verir ki, bərpa üçün tələb olunan investisiyanın həcmi kifayət qədər böyük olacaq. Azərbaycan daxili mənbələri hesabına bərpa və yenidənqurma prosesini aparır. Növbəti illərdə də vəsaitin ayrılması nəzərədə tutulur.

Eləcə də Zəngilana köçən insanların məşğulluğunun təmin edilməsi üçün işlər görülür. Cənab Prezidentin də göstərişi ondan ibarətdir ki, qayıdan ailələr işlə təmin edilsinlər Əhalinin məşğulluğunun olması vacibdir.

İkinci "Ağıllı kənd" Füzuli rayonunun Dövlətyarlı kəndində inşa edilir. Növbəti illərdə daha kütləvi qayıdışları müşahidə edəcəyik. Paralel olaraq kəndlərimizin bərpa olunması daha çox məcburi köçkünlərimizin öz yurdlarına qayıtmasına imkan verəcək.

***- 2022-ci ilin ilk 6 ayının sosial-iqtisadi inkişafı ilə bağlı Prezidentin keçirdiyi müşavirəyə diqqət çəksək, orada bu yöndə qeyd olunan məqamları necə dəyərləndirərdiniz?***

- Biz 2022-ci ilin ilk yekunlarını qiymətləndirən zaman birmənalı şəkildə dünya iqtisadiyyatını və regionda baş verənləri xüsusilə qeyd etməliyik. Təbii ki, 2022-ci ilin birinci rübünün yekunları Azərbaycan iqtisadiyyatı üçün uğurlu hesab oluna bilər. Bir tərəfdən iqtisadiyyat 6,2 faiz, qeyri-neft iqtisadiyyatı 9,6 faiz artıb, qeyri-neft sənayesində 12 faiz artım var. Nəticə etibarilə bu ondan xəbər verir ki, iqtisadi artım tempi sürətlidir. İqtisadi artımı şərtləndirən əsas səbəblər, lokomativ artıq qeyri-neft sektorudur.

Əslində, 2022-ci ilin ilk 6 ayı bölgə və dünya üçün fərqli bir dövr oldu. 2021-ci ildə inkişaf etmiş ölkələrdə, eləcə də də dünyada iqtisadi artım tempində yüksəlişlər olmuşdu. Əslində, 2021-ci ildə həm qlobal iqtisadiyyatda, həm Avrozonada yüksək iqtisadi artımlar proqnozlaşdırılırdı. Rusiya-Ukrayna müharibəsi praktik olaraq qlobal iqtisadiyyatda, eyni zamanda regionda iqtisadi trendi tamamilə dəyişdi. Bu ilin aprel ayında beynəlxalq maliyyə qurumları, o cümlədən beynəlxalq valyuta fondu, dünya bankı iqtisadi artım proqnozlarına yenidən baxdı və neqativ dürüstləşmə həyata keçirtdi. Belə ki, 2022-ci ildə iqtisadiyyatın dünyada 4,1 faiz artacağı proqnozlaşdırılsa da, artıq o proqnoz 2,9 faizə qədər azaldılıb. Avrozonada 4 faiz iqtisadi artım proqnozlaşdırılırdısa da, həmin rəqəm də 2,8 faiz azaldı.

***- Belə bir şəraitdə Azərbaycan üçün əsas hədəf nə idi?***

- 2022-ci ilin birinci yarısında Azərbaycan üçün əsas hədəflərdən biri qlobal ərzaq qıtlığının Azərbaycan istehlak bazarına təsirini minimallaşdırmaqla bağlı oldu. Nəzərə alaq ki, dünyada qlobal ərzaq böhranı, ərzaq qıtlığı var. Yəni bir tərəfdən dünya bazarında ərzaq məhsullarının qiymətlərinin artmasını müşahidə edirik, digər tərəfdən ərzaq məhsulu tələbinin ödənilməsi ilə bağlı çətinliklər var. Nəticə etibarilə BMT-nin qiymətləndirməsi ondan ibarətdir ki, bütövlükdə təxminən, 1,8 milyard dünya sakininin ərzaqla təminatında problemlər müşahidə olunur. Səbəblər aydındır. "COVID-19" pandemiyası və post-COVID dövründə tələbin artması, istehsalın isə bu tələbə uyğun olmaması müşahidə olundu.



**Vüqar Bayramov,**
millət vəkili

2021-ci ildə də ərzaq məhsullarının qiymətlərində kəskin artım müşahidə olunmuşdu. Təbii ki, Rusiya-Ukrayna məsələsi prosesə daha çox təsir göstərdi. Dünya bazarına çıxarılan buğdanın, təxminən, 30 faizini Rusiya və Ukrayna təklif edir. Ona görə də müharibə həm regionda, həm də qlobal olaraq buğda tələbinə təsirini göstərdi. Belə bir fonda biz yerli istehsalın daha da aktivləşdiyini müşahidə etdik və cənab Prezident tərəfindən imzalanan son sənəd məhz istehsalın təşviq edilməsini özündə ehtiva edir. Nəticə etibarilə subsidiyalar artırılacaq. Bu da təbii ki, fermerlərin maliyyə imkanlarının, paralel istehsalın artırılmasına gətirib çıxardacaq. Bu gün Azərbaycan buğdaya olan tələbin 60 faizini yerli istehsalın hesabına ödəyir. Digər 40 faizi idxal olunur ki, burada Rusiyanın payı kifayət qədər böyükdür.

***- Azərbaycanın taxıl ehtiyatı nə qədər artıb?***

- İşğaldan azad olunmuş ərazilərimizin, təxminən, 200 min hektar əkin üçün yararlı əraziləri var. Onun haradasa 40 min hektarı, artıq əkin fonduna qaytarılıb. Yüz min hektarında suvarma işləri həyata keçirilir. Təbii ki, növbəti illərdə torpaqlarımız əkin fonduna qaytarılacaq. Həmin ərazilərimizdə buğda istehsalı həyata keçiriləcək. Buğda istehsalı baxımından həmin ərazilər kifayət qədər cəlbedici və məhsuldar torpaqlara malik ərazilərdir. Əslində, əsas məqsəd ondan ibarətdir ki, iqtisadi tələb yerli istehsal hesabına ödənilsin. Bu istiqamətdə aparılan işləri nəzərə alsaq, o zaman yaxın illərdə əhalinin təminat səviyyəsinin 90 faizə yüksəldilməsi mümkündür. Bu da idxaldan asılılığın minimuma endirilməsinə və istehlak tələbinin daha çox yerli istehsalın ödənilməsinə gətirib çıxara bilər.

> *2022-ci ilin birinci rübünün yekunları Azərbaycan iqtisadiyyatı üçün uğurlu hesab oluna bilər*

***- Vüqar müəllim, ölkədə qiymət artımı əhalini ciddi narahat edir. Azərbaycanda bir çox hallarda ərzaq qiymətlərinin süni olaraq qaldırıldığı bildirilir.***

- Ümumiyyətlə, qiymət artımları qlobal olaraq müşahidə olunur. İnkişaf etmiş ölkələrdə belə istehlak bazarındakı qiymətlər son 40 ildə ən yüksək səviyyəyə qalxıb. Məsələn, ABŞ-da inflyasiyanın səviyyəsi bəzən 2 faiz, bəzən də 2 faizdən az olub. Hazırda Birləşmiş Ştatlarda inflyasiyanın səviyyəsi 8 faizdən çoxdur. Böyük Britaniya və avrozonada da inflyasiya səviyyəsinin artmasını müşahidə edirik. Pandemiya dövründə istehsalın azalması, Rusiya-Ukrayna müharibəsi qlobal bazarda qiymətlərə təsir göstərdi. Təbii ki, bu da Azərbaycanda istehlak bazarında qiymət artımına gətirib çıxardı. Rəsmi statistikaya görə, 12 faiz qiymət artımı var. Ərzaq məhsullarında artım 19 faizə yaxındır. Əvvəlki illərlə müqayisə etsək, qiymət artımları kifayət qədər böyükdür. Bunun əsas səbəbi dünya bazarında qiymət artımı ilə bağlıdır. Sözsüz ki, süni şəkildə qiymətlərin artırılması halları da var. İstehlak bazarında belə hallara qarşı monitorinq davam edir. Təbii ki, bazarın liberallaşdırılması, bazar tərəfindən qiymətlərin tənzimlənməsi əsas hədəflərdəndir.

Bildiyiniz kimi, "Rəqabət Məcəlləsi" hazırlanıb. Bu, artıq Nazirlər Kabinetindədir və gözlənilir ki, növbəti payız sessiyasında Milli Məclisə təqdim olunacaq. Burada əsas məqsəd bütövlükdə monopoliyaya qarşı mübarizənin ciddi şəkildə dərinləşdirilməsi, bu mənfi halın aradan qaldırılması və nəticə etibarilə rəqabətin gücləndirilməsidir. Rəqabətin gücləndirilməsi nəticədə qiymətə təsir göstərən amillərdəndir. Bu, xüsusən də süni, inzibati şəkildə qiymət artımının qarşısını almış olacaq.

***- Pensiya yaşının azaldılması ilə bağlı hansı addımlar atılır və təklifləriniz nədir?***

- Pensiya yaşının artırılması 2017-ci ildə qəbul edilən qanunvericiliyə əsasən həyata keçirilir. Əmək pensiyaları ilə bağlı qanunvericilikdə edilən son dəyişikliklərdə bir sıra kateqoriyalar üzrə güzəştlər qeyd olundu. Məsələn, 1 və daha artıq övladı olan ailələrdə ananın pensiya yaşı azaldılıb. Digər dəyişikliyə əsasən əgər uşaqlar ata himayəsində olubsa, artıq bu, atalara da tətbiq olunacaq. Eyni zamanda daha zərərli işlərdə çalışan insanların pensiya yaşı 10-12 il azaldılır. Təbii ki, bizim də pensiya islahatları ilə bağlı bəzi təkliflərimiz var. Onlardan biri xüsusən də uşaq sayına görə pensiya yaşına yenidən baxılması məsələsidir. Artıq 5 və daha artıq uşaqları olan ailələrin sayı daha çox deyil. Təklif edirik ki, bu rəqəm 3-5 və daha artıq uşaqlı ailələrə tətbiq olunsun. Yəni əgər ailədə 3, yaxud 5 uşaq varsa həmin ailələrdə ana, yaxud ata daha tez pensiyaya çıxsın. Bir sıra ölkələrdə qadınların pensiya yaşı ilə kişilərin pensiya yaşı arasında fərq var. Qadınlar daha tez təqaüdə çıxmaq hüququna malik olurlar. Təkilf ondan ibarətdir ki, xanımlar üçün 63 yaş qorunub saxlanılsın, kişilərdə 65 yaş qalsın. Eləcə də pensiya kartlarından istifadə barədə təklifimiz var. Bəzi ölkələrdə pensiya kartlarından istifadə ilə bağlı çevik imkanlar yaranıb. Yəni pensiya kartından kommunal xidmətlər, kreditlərin ödənilməsi üçün istifadə edilə bilir. Təklif edirik ki, pensiya kapitalı böyük olan şəxslərə daha tez pensiyaya çıxmaq imkanı verilsin. Yaxud vətəndaş pensiyaya çıxmadan da öz kapitalından istifadə etsin. Pensiya kapitalı olan, amma tez rəhmətə gedən şəxslərin ailələrinin həmin pensiya kapitalından istifadə etməsi mümkün olsun. Bu gün əmək pensiyalarına olan dəyişikliyə görə şəxs vəfat edirsə, dünyasını dəyişən pensiya hüququ olan şəxsin təqaüdü pensiya hüququ olan ailə üzvləri arasında bölünür.

***- Vüqar müəllim, vətəndaşları narahat edən məqamlardan biri də istehlak kreditlərinin faiz dərəcələrinin yüksək olmasıdır. Banklarda kreditlərin faiz dərəcələrinin azaldılması gündəmə gətirilə bilərmi?***

- Mütəmadi olaraq kreditlərin faiz dərəcələrinin aşağı salınması ilə bağlı müzakirələr aparırıq. Bu, bank sektorunun özünün atacağı addımlardır. Milli Məclis kreditlərin faizləri barədə minimumları müəyyənləşdirmir. Burada, artıq Mərkəzi Bankın intervensiyası əsasında kreditlərin faizləri müəyyənləşir. Təbii ki, Mərkzi Bankdan bu istiqamətdə fəaliyyətini aktivləşdirməsini təklif edirik. Əslində, bank sektorunun əsas problemlərdən biri budur. Faizlər yüksək olduğundan vətəndaş kreditləri götürəndən sonra onu qaytarmaqda əziyyət çəkir. Bu, nəticədə ona gətirib çıxarır ki, bank verdiyi kreditin bir hissəsini geri ala bilmir. Yüksək faizlə verib, yüksək gəlir əldə etmək istəyərkən, əksinə, o kreditin bir hissəsini geri qaytarmır və problemli kredit kimi rəsmiləşir. Nəticə etibarilə bu bankın özü üçün cəlbedici deyil. Burada banklar daha çox özləri zərərə düşür. Təklif edirik, mövcud alətlərdən istifadə etməklə kredit fazilərini optimallaşdırmaq lazımdır. Bank bir vətəndaşdan depoziti 7 faizə alıb, digər vətəndaşa 17 faizlə yüksək kredit təklif edir. İnanırıq ki, Mərkəzi Bankdakı struktur dəyişikliyindən sonra bu istiqamətə diqqət daha da artırılacaq. Ümumiyyətlə, bankların da təşviq edilməsinə ehtiyac var. Bank sektorunda rəqabətin gücləndirilməsi çox vacibdir. Rəqabətin gücləndirilməsi ilə kredit faizinin aşağı salınmasını müşahidə edə bilərik.

✍ **Tahirə Qafarlı**

## Tarix

**Tarixçi alim Qafar Çaxmaqlı deyir ki, tarixi faktlar, aparılan araşdırmalar sübut edir ki, XIX əsrə qədər Cənubi Qafqazda bir dənə də erməni olmayıb. Bəllidir ki, ermənilər o ərazilərə sonradan köçürülüblər. Azərbaycan torpağı, orada yaşayan müsəlman Azərbaycan türkləri böyük haqsızlıqla üzləşiblər.**

Bu istiqamətdə hafta.az-a danışan tarixçi alim Qafar Çaxmaqlı faktların dünya alimlərinin araşdırmalarında da öz əksini tapdığını önə çəkib.

"Ermənilər Qafqaz xalqı deyil. Qafqazda az-az görünsələr də, toplum şəklində yaşayan əhali olmayıb. Ermənilər İrəvan xanlığı ərazisində olan bir-iki kənddə çox az sayda təmsil olunublar. Bu mənada biz indiki Ermənistan ərazisinin vilayət elan olunmasını ədalətsiz hesab edirik. 1827-ci ildə İrəvan xanlığı işğal olunandan sonra, erməni əhalisi bura köçürülməyə başlanıb və sonralar bizim yerləri ermənilərin yaşadığı vilayət adlandırmağa başlayıblar. Bu o demək idi ki, ermənilər bu ərazilərə heç vaxt iddia edə bilməzlər".

**Tarixi faktlara istinad edən Q.Çaxmaqlı ermənilərin bu ərazilərə Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra köçürüldüyünü deyir.**

"Bu barədə əlimizdə çoxlu dəlil, faktlar var. Rus tədqiqatçıları ermənilərin bu ərazilərə sonradan köçürüldüyünü bildirir. Biz bu faktları toplayıb bir daha dünyaya göstərə bilərik. Hamı yaxşı bilir ki, 90 min erməni İran ərazisindən, 40 min də Osmanlı ərazisindən buralara köçürülmüşdür.

Q.Çaxmaqlının sözlərinə görə, tarixi Azərbaycan torpağı olan İrəvan şəhərinin Azərbaycan türklərinə, müsəlmanlara məxsus olmasına dair əldə olunan faktların, nümunələrin üzərində daha çox dayanmalı və bunu dünyaya təqdim etməliyik.

Tarixçi alim hesab edir ki, Azərbaycanın qədim tarixi torpaqları üzərində qurulan Ermənistan adlanan dövlətdə müsəlman azərbaycanlılarına, onun milli-mədəni, mənəvi irsinə qarşı yüzillərboyu davam edən erməni məkrli siyasətinə bu gün İrəvanın mərkəzini təşkil edən Təpəbaşı Məhəlləsindən baxsaq, erməni vandallığının hansı ideyaya malik olduğunu bir daha görə bilərik.



**Qafar Çaxmaqlı,**
tarixçi alim

dir. Burada Azərbayacan xalqına məxsus tarixi abidələr, qəbiristanlıqlar, karvansaralar və digər tarixi mirasımız yox edilmişdir. Bu, hətta Ermənistanın dövlət siyasəti halına gətirilmişdir. İrəvan şəhərinin bir erməni şəhərinə dönüşdürülməsi üçün baş plan hazırlamışdılar. İrəvanın qala hissəsi, Təpəbaşı məhəlləsi və digər yerləri artıq baş plana uyğun olaraq yerlə-yeksan olunmağa başlamışdır. O cümlədən də Təpəbaşı məhəlləsinə baxsaq, həmin məhəlləni yer üzündən silmək üçün planlı şəkildə yeni evlər tikilmişdi. İndi Təpəbaşı məhəlləsinin bir hissəsi qalır. Biz bunu dünyanın diqqətinə çatdırıb Ermənistanı ifşa etməliyik ki, bu ərazidə olan tarixi mirasımız qorunub saxlanılsın. Əksinə, ermənilər YUNESKO-ya və digər beynəlxalq təşkilatlara "Dağlıq Qarabağda ermənilərə aid abidələrin dağıdılması" ilə bağlı müraciət edirlər. Buna adekvat cavab olaraq, İrəvanda və digər yerlərdə Azərbaycan tarixinə aid olan abidələrin yox edilməsinin erməni dövlət siyasəti olduğunu diqqət mərkəzinə gətirməliyik və YUNESKO-dan tələb etməliyik ki, öz missiyasına uyğun, planlı şəkildə bunların qarşısını alsın".

# Ermənilər Qafqaz xalqı deyil



> *İrəvanın bu şəkildə məhv edilib erməniləşdirilməsi qəbuledilməzdir*

İrəvan şəhəri Orta əsr milli-mədəniyyət paytaxtlarından biri olmuşdur. Burada olan 4 məhəllənin hamsında azərbaycanlılar yaşamışdır.

**1918-ci ildə Azərbaycan Milli Şurası İrəvanı müvəqqəti paytaxt kimi ermənilərə güzəşt etmişdir. Bundan sonra İrəvan Ermənistan adlanan dövlətin paytaxtına çevrilmişdir. Ondan sonra İrəvan şəhərinin faciəsi başlamışdır. İrəvanın bu şəkildə məhv edilib erməniləşdirilməsi qəbuledilməzdir. Biz bu məsələni hər addımda gündəmə gətirməliyik.**

Təpəbaşı məhəlləsi İrəvanda özünün varlığını müəyyən qədər qorumuş hissəsidir və bizim orada tarixi mirasımız olduğuna görə bunu gündəmə gətirib beynəlxalq ekspertləri dəvət etməliyik. Bu, yalnız Azərbaycan xalqının mirası deyil, bəşəriyyətin dünyanın ən böyük mirası olduğuna görə YUNESKO missiyası belə abidələri qorumaqdır. Bizim Təpəbaşını qoruyub memarlıq nümunələrini gələcəyə daşımaq işimiz o əraziyə iddiamızın başlıca səbəblərindən biri olmalıdır. Biz Azərbaycana vurulan zərəri hər addımda gündəmə gətirməliyik.

Azərbaycanın qədim tarixi torpaqları üzərində qurulan Ermənistan dövləti Azərbaycanın millli mədəni irsinə qarşı yüzillərboyu təcavüz, soyqırımı həyata keçirmişdir.

Q.Çaxmaqlı bildirir ki, Azərbaycan abidələrinin İrəvanda tamamilə məhv edilməsi ilə bağlı çox böyük təhlükə yaranıb.

**"İrəvanda yalnız Göy məscid qalmışdır. O da bəllidir ki, bu da İran tərəfindən təmir olunaraq, ona fars məscidi adı qoyulmuşdur".**

Q.Çaxmaqlı bildirir ki, bu gün YUNESKO-ya müraciət, qeyd edilən yerlərin beynəlxalq mühafizəyə götürülməsinə çağırışlar, Azərbaycanın xeyrinə olan xarici təcrübələr, beynəlxalq hüquqi sənədlərdə bu məsələlərin şərhi haqlarımızın bərpası üçün mühüm rola malik ola bilər. YUNESKO səviyyəsində bu məsələlərin gündəmə gətirilməsi, qorunması yetərli deyil. Ermənistanda yalnız abidələrin məhvi deyil, həm də bizim tarixi ərazilərimizin adları, toponimlərimiz tamamilə erməniləşdirilib.

"Tarixi adları ortaya qoymalıyıq. İndi Ermənistanda elə böyük mədəniyyət guşəsi yoxdur ki, onlar Azərbaycan türkcəsində olmasın. Onlar bütün türk adlarını dəyişdiriblər. Tarixi adlar bərpa edilməlidir.

Apardığımız təhlillərə görə, bu ərazilərdən 5 milyondan çox əhali çıxarılıb. Bu əhalinin bir qismi Türkiyədə yaşayır, bir hissəsi Azərbaycandadır, müxtəlif ölkələrdə yaşayır. Bu insanların tələbi ilə, təşəbbüsü ilə İrəvan Türk Cümhuriyyəti yaranıb. Dövlət Şurası fəaliyyət göstərir. Əhalinin geridönüşünü təmin etmək üçün ideoloji sistem hazırlanmışdır. Mübarizəmizi sonuna qədər davam etdirməliyik. Ermənistan deyilən ərazi bizim tarixi ərazilərimizdir. Burada ədalətsiz dövlət qurulub, bunun heç bir perspektivi yoxdur. Biz öz torpaqlarımıza qayıdacağıq".

✍ **Tahirə Qafarlı**

# Psixoloji zorakılıq - onu necə sübut etmək olar?

## Layihə

*Günümüzdə məişət zorakılığı ilə bağlı məlumatlarla tez-tez rastlaşırıq. Məişət zorakılığı müxtəlif formalarda olur. Çox vaxt rastlaşdığımız məlumatlarda adətən fiziki zorakılığın nə vaxt və necə baş verdiyi barədə danışılır. Döymək, həyat yoldaşını, tərəfdaşını incitmək - bir çox qadın bunu yaşayır, baxmayaraq ki, kişilərin də eyni vəziyyətdən əziyyət çəkdiyi hallar olur. Bu cür zorakılıq asan üzə çıxır - göyərmələr, sınıqlar, yanıqlar bunu göstərir və bu faktları tibbi müayinədən keçirməklə sübut etmək olar.*



Cəmiyyətdə iqtisadi və psixoloji zorakılıq faktları da az deyil, lakin günahkarlar buna görə heç bir cəza çəkmirlər və kiminsə günahkar olduğunu sübut etmək kifayət qədər problemlidir. İqtisadi zorakılıq faktı zamanı insan maliyyədən məhrum olur, məsələn, qazandığı hər şeyi əlindən alırlar və ya evdar qadından danışırıqsa, ən zəruri şeylərə belə, pul vermirlər. Yəni təzyiq göstərən tərəf maliyyədən qurbanına qarşı təsir vasitəsi kimi istifadə edir.

Psixoloji zorakılığa isə təhqir, alçaldılma, özünə hörmətin aşağı salınması, hədələmə, total nəzarət və s. daxil ola bilər. Bu kimi hallarla təkcə ailədə deyil, gündəlik həyatda, xüsusilə iş yerlərdində tez-tez qarşılaşmaq mümkündür. Məsələn, bir şəxsi hədəf götürüb lağa qoymaq, onun bəzi xüsusiyyətlərini ələ salmaq, utandırmaq iş mühitində rast gəlinən hadisələrdəndir. Xüsusilə alçaldılmaq adətən insanda dərin və uzun müddət sağalmayan mənəvi yaralara səbəb olur. Bu, insanın özünə olan inamını zədələyir, sonradan onu bərpa etmək isə çox çətin olur. Beləcə, həm içimiz bizə bu cür münasibət göstərən insana qarşı qəzəblə dolur, həm də get-gedə özümüzə yadlaşır, özümüzü dəyərsiz hiss edirik.

Ekspertlər hesab edirlər ki, əslində qarşı tərəfin aqressiyasının başqasının üzərinə tökülməsi zorakılıqdır. Hər bir insanın daxilində sevinc, nifrət, sevgi, kin, hörmət, ehtiram hissləriylə yanaşı, aqressiya hissi də var. Aqressiya dedikdə insanın başqa adamlarla problem yaratması, onlara fiziki, maddi və mənəvi ziyan vurması başa düşülür. Aqressivlik insanlara bilərəkdən xələl yetirmək cəhdidir.

Bu gün aqressiyanın hamı tərəfindən qəbul edilən izahı yoxdur. Hamı aqressiyanı öz psixikasına, öz şəxsi həyat təcrübəsinə görə izah edir. Sübut olunub ki, zorakılığın kökündə də aqressiya durur. Zorakılıq da insanın aqressiyasının müəyyən şəraitdə və ya situasiyada mənfi reaksiya olaraq büruzə verilməsidir.

Mütəxəssislərin fikrincə, zorakılıq növü çox olsa da, bunların arasında insana ən acı və daha təsirli olanı da elə psixioloji zorakılıqdır. Psixoloqlar bu qənaətdədir ki, istər fiziki zorakılıq, istərsə də sosial zorakılıq az müddətdə keçir. Psixoloji zorakılıq isə digərlərindən fərqli olaraq qalıcı və uzunmüddətli təsirə malikdir. Travmaların yaranmasının bilavasitə kökündə psixoloji zorakılıq dayanır. Zorakılığa meyilli olan insanların keçmişdə yaşadıqları zorakılığı gələcəkdə tətbiq etməsinə heç kimin şübhəsi olmasın. Başqa sözlə, keçmişdə ətrafındakı insanlarda hansısa formada zorakılıq görən şəxs gələcəkdə zorakılığa meyilli olur. Ümumiyyətlə isə zorakılığın bütün formalarının psixoloji aspekti var. Məqsəd qarşındakının ləyaqətinə zərər verməkdir. Psixoloji zorakılıq isə insanları təkcə psixi sağlamlıqdan yox, həm də gələcəkdə şəxsi, sosial və iqtisadi inkişaf imkanlarından məhrum edir. Bura təcridetmə, şifahi təcavüz, hədələmə, nəzarət, təhqir və böhtan kimi hərəkətlər daxildir.

> *Reallıqda məişət zorakılığı təkcə fiziki zorakılıqdan ibarət deyil, burada psixoloji, cinsi, iqtisadi və digər hallar var*

Aparılan araşdırmalara görə, əks cinsin nümayəndələri qadınları daha çox psixoloji zorakılığa məruz qoyur. Yəni kişilər fiziki zorakılıqdan daha çox psixoloji zorakılığa üstünlük verir. Qeyd etmək lazımdır ki, qadınlara qarşı zorakılıq tarix boyu kişilərlə zəif cins arasında aparılan qeyri-bərabər bölgünün nəticəsində yaranan ədalətsizlik səbəbindən yaranır və müasir dövr də daxil olmaqla, bütün dövrlərdə kişilər onlara verilən güc və səlahiyyətlərdən qadınlara qarşı sui-istifadə edib. Zəif məxluqlara qarşı yönəldilən ədalətsizliyin əsasən ailə daxilində baş verməsi faktı bu gün artıq dünya ictimaiyyətinin gündəmində duran əsas aktual məsələlərdəndir. Psixoloji zorakılıq nəticəsində qadınlarda daha çox özünə qəsd etmək fikirləri yaranır. Depressiya, qorxu, yuxusuzluq, özünəqapanma kimi problemi ortaya çıxır. Eyni zamanda, bəzən qadınların həddən artıq kökəlməsi də psixoloji zorakılığın təzahürüdür. Ola bilsin ki, insan öz həyat yoldaşına heç əl qaldırmasın, ancaq öz hərəkətləri, davranışları ilə psixoloji zorakılığa səbəb ola bilər.



**Mehriban Zeynalova,**
"Təmiz Dünya" İctimai Birliyinin sədri

Psixoloji zorakılığın əlamətlərinə gəlincə, bunlar aşağıdakılardır:

Başqalarının qarşısında alçaltmaq;

"Axmaq", "iyrənc" və ya "dəyərsiz" kimi təhqiredici adlarla çağırmaq;

Qorxudacaq şəkildə qəzəblənmək;

Qayğı göstərdiyi insanları və ya ev heyvanını incitməklə hədələmək;

"Mən sənə sahib ola bilməsəm, heç kim ola bilməz" kimi ifadələrdən istifadə;

Əvəzinə qərar vermək. Bu, nə geyindiyi və ya yediyilə bağlı ola bilər;

Qısqanc davranmaq, daim aldatmaqda ittiham etmək;

Nə dediyini başa düşmürmüş kimi davranmaq;

Özünü "axmaq" kimi hiss etdirmək;

Fikirlərini dinləməkdən imtina;

Hadisələr haqqında yaddaşını sorğu-sual etmək və ya bir hadisənin onun dediyi kimi baş verdiyini inkar etmək (hətta onun haqlı olduğunu bilsə də);

Başqaları ilə söhbətə başlamağa çalışdığı zaman mövzunu dəyişmək;

Ehtiyaclarını və ya hisslərini özününkündən əhəmiyyətsiz hesab etmək.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən "Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib ki, hazırda məişət zorakılığının əsas görünən tərəfi fiziki zorakılıqdır: "Bu gün danışılanlar və statistika yalnız məişət zorakılığının bu tərəfini göstərir. Amma reallıqda məişət zorakılığı təkcə fiziki zorakılıqdan ibarət deyil, burada psixoloji, cinsi, iqtisadi və digər hallar var.**

Birlik sədri söyləyib ki, psixoloji zorakılıq hətta iqtisadi zorakılıqdan da böyük fəsadlara gətirib çıxarır: "İqtisadi zorakılığın da fəsadları kifayət qədər dağıdıcıdır. Hələ ki, biz məişət zorakılığının yalnız bir tərəfini araşdırırıq. Bu sahədə problemlər qalmaqdadır. Bununla bağlı çoxlu işlər görülməlidir. Təəssüf ki, bizim cəmiyyətdə daha çox fiziki zorakılıqla mübarizə aparır. Psixoloji zorakılıq isə bütün ailələrdə müəyyən qədər var. Ancaq psixoloji zorakılığın ən dəhşətli forması insanı özünü öldürmə həddinə çatdırmaqdır və ya şəxsiyyət olaraq yoxa çıxmasına gətirib çıxartmaqdır. Psixoloji zorakılıq həm də qarşı tərəfin zorakılığa əl atmasına səbəb olur, qisasçılıq hissi formalaşdırır. Yəni bu zorakılıq növünün də belə fəsadları var. Biz bu gün yalnız fiziki zorakılıqla mübarizə aparırıq, çünki ona qarşı cəza imkanları var. Əgər hansısa bədən xəsarətləri varsa, bunu məhkəmədə sübuta yetirmək imkanı olur. Psixoloji zorakılıq isə gözlə görünən zorakılıq deyil. Hətta intihar həddinə çatdırma olsa belə, biz intihar etmiş şəxsin psixoloji zorakılığın qurbanı olduğunu sübuta yetirə bilmirik. Çox az hallarda onu sübut etmək imkanı olur. Ona görə də, biz ailədaxili zorakılığın digər formalarına qarşı da mübarizə aparıb, onu edənləri cəzalandırmaq üçün kifayət qədər çalışmalıyıq. Mən bununla bağlı bir çox ölkələrin təcrübəsinə baxdım. Baxmayraq ki, bu zorakılıq növlərinin cəzalandırılması ilə bağlı qanunvericilikdə maddələr var, ancaq cəzanın tətbiq edilməsi üçün kifayət qədər indiqatorlar, üsullar yoxdur. Bu da onu göstərir ki, bütün dünyada psixoloji zorakılığa əl atan şəxslərin cəzalandırılması metodu tam işlənməyib. Halbuki nə qədər psixoloji zorakılığa məruz qalanlar var və ən çox bu hala kişilər məruz qalır. Fiziki zorakılıqla bağlı isə sübutları təqdim etmək bir qədər asandır. Müəyyən xəsarət və izləri polisə, yaxud məhkəməyə təqdim etmək olur. Psixoloji zorakılıqda iz qalmadığından zorakılığa məruz qalan tərəf əsəb və gərginliklə bağlı tibbi yardım çağırmalı, yaxud baş verənlərlə bağlı videomateriallar olmalıdır. Gərginliklə bağlı psixiatr və ya psixoloq rəy verməlidir. Amma rəy vermək üçün də psixiatra və ya psixoloqa status verilməlidir. Bu kimi çətinliklər söz-ügedən məsələnin işləkliyinə maneə yaradacaq. Zorakılıq isə bir dəfə olmur. Amerika psixoloqları hesab edir ki, ən azı 3 dəfə ardıcılıq zorakılıq baş verəndən sonra bu faktı təsdiqləmək lazımdır. Bunu qiymətləndirmək üçün isə meyarlar qoyulmalıdır".

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ "Rusiya ordusu Ukraynadakı müharibə zamanı təqribən 40 000 hərbçi itirib". Bunu Ukrayna Prezidenti Volodimir Zelenski növbəti videomüraciətində deyib. Onun sözlərinə görə, fevralın 24-dən bu günə qədər on minlərlə rusiyalı hərbçi isə yaralanıb.

---

■ Daxili işlər orqanlarında yeni təyinat olub. Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə Tərtər rayon Polis Şöbəsinin Dövlət Yol Polis Bölməsinə yeni rəis təyin edilib. Polis mayoru İldırım Alıyev bu vəzifəyə təyinat alıb. Buna qədər o, Daşkəsən RPŞ Dövlət Yol Polis Bölməsinin rəisi vəzifəsində çalışıb.




---

■ Mövcud kreditlər üzrə faizlərin subsidiyalaşdırılması ilə bağlı sahibkarlara 65,1 mln. manat vəsait ödənilib. Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabında yazıb. Nazir qeyd edib ki, bununla bağlı 6308 müraciət daxil olub ki, onlardan 5022-si üzrə müsbət qərar qəbul edilib. Təsdiqlənən subsidiyanın ümumi məbləği 69,4 mln. manat təşkil edir.

---

■ Bağçalarla bağlı proses bütün bölgələri əhatə edir. Monitorinqlər heç vaxt bitməyəcək". Bunu təhsil naziri Emin Əmrullayev deyib. Nazir qeyd edib ki, bu, dövri prosesdir: "Monitorinqlərin nəticəsinə uyğun olaraq 51 nəfər bağça direktoru artıq işdən azad olunub. Bizim müəyyən mənada bir neçə yüz adama da töhmət, xəbərdarlıq vermişik. Problemlər çoxdur, amma həlli mümkün olmayan problem də yoxdur.

---

■ Azərbaycan D-8 ("İslam səkkizliyi") təşkilatına üzv olmaq üçün müraciət edib. Bu barədə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. O qeyd edib ki, indi təşkilatın güclənməsinə və genişlənməsinə ehtiyac var.

---



■ Azərbaycanda əhalinin banklardakı əmanətləri bu ilin iyulun 1-nə 10 596.2 milyon manata çatıb. Bu, yanvar-may ayları ilə müqayisədə 0,3% çoxdur. Ötən ilin eyni dövrü ilə müqayisədə isə əhalinin banklardakı depozitləri 25,6% artıb. Belə ki, 2021-ci ilin ilk yarısında bu əmanətlərin həcmi 8435,4 milyon manat təşkil etmişdi.

---

■ Ukraynanın yeni Baş prokuroru təsdiqlənib. Namizədliyi Prezident Vladimir Zelenski tərəfindən irəli sürülən Andrey Kostinin posta təyin olunması ilə bağlı səsvermə keçirilib. 299 millət vəkilinin dəstəyi ilə Andrey Kostin Ukrayna Baş prokuroru postuna seçilib. O, bu postda İrina Venediktovanı əvəz edəcək.

---

■ Bakı Ağır Cinayətlər Məhkəməsində kafedə qətl törətməkdə təqsirləndirilən Orxan Şahbazovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Hakim Samir Əliyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsə hökm oxunub. Məhkəmənin hökmü ilə O.Şahbazov 10 il azadlıqdan məhrum edilib.



# Nərminin qətli ilə bağlı Tovuzda 25 evə baxış keçirilib



**Gəncə Ağır Cinayətlər Məhkəməsində Tovuz rayonunun Dondar Quşçu kəndində 10 yaşlı Nərmin Quliyevanın qətlə yetirilməsində təqsirləndirilən İlkin Süleymanovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Hakim Dadaş İmanovun sədrliyilə keçirilən prosesdə sənədlərin tədqiqi mərhələsi başlayıb. Daha sonra İlkin Süleymanovun ibtidai istintaqda dindirildiyi protokol elan olunub. Həmin vaxt şahid qismində ifadə verən İ. Süleymanov bildirib ki, küçəyə siqaret çəkməyə çıxanda evləri ilə üzbəüzdə yanğının olduğunu görüb. O, hadisə yerinə yaxınlaşıb və meyitin yandığının şahidi olub. İlkin Süleymanov hadisədən xəbərsiz olduğunu bildirib.

İlkin Süleymanovun evinə baxış keçirilərək onun paltarlarının götürülməsi də məlum olub. Evə baxış keçirilərkən heç bir şübhəli fakt aşkarlanmayıb.

Prosesdə Nərminin üzərində olan paltarların siyahısı elan edilib. Yanvarın 9-da Dondar Quşçu kəndində 25 evə baxış keçirilməsi barədə sənədlər elan olunub. Proses avqustun 24-də davam etdiriləcək.

İttihama görə, 1973-cü il təvəllüdlü İlkin Süleymanov Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.9 (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə), 133.2.1 (oğurlanmış şəxsə əzab vermə), 133.2.4 (yetkinlik yaşına çatmayan, köməksiz vəziyyətdə olan şəxsə əzab vermə), 144-cü (adam oğurluğu) maddələrilə təqsirləndirilib. O, Nərmin Quliyevanı oğurlayaraq, 47 gün sonra qətlə yetirməkdə günahlandırılır.

# Rusiyadan Bakı-İrəvan danışıqlarına reaksiya

**Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması üzrə səylər üçtərəfli bəyanatlara əsaslanmalıdır. Bunu Rusiya Xarici İşlər Nazirliyinin Məlumat və nəşr departamentinin direktor müavini İvan Neçayev brifinq zamanı deyib.**

"Rusiya Cənubi Qafqazın sülh və çiçəklənmə zonasına çevrilməsinin tərəfdarıdır. Biz bu istiqamət üzrə işimizdə sırf qurucu mövqe tuturuq və heç kimlə rəqabət aparmaq niyyətində deyilik. Bizim məqsədlərimiz konstruktivdir. Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına gəldikdə, biz dəfələrlə qeyd etmişik ki, müvafiq səylər Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-c il üçtərəfli bəyanatlarına əsaslanmalıdır. Regiona daxil olmayan ölkələr qeyd olunan razılaşmalar müstəvisində fəaliyyət göstərəcəksə və onların reallaşmasına xidmət edəcəksə, biz bu ölkələrin prosesə qoşulmasına qarşı deyilik. Ən əsası, kimisə zəiflətmək üçün səhnəarxası oyunların aparılmasına yol verməməkdir", - deyə o bildirib.

# Aİ bu il Azərbaycandan qaz tədarükünün artmasını gözləyir

**Avropa İttifaqı (Aİ) bu il Azərbaycandan qaz tədarükünün artmasını gözləyir. Bunu enerji məsələləri üzrə Avropa komissarı Kadri Simson Aİ Nazirlər Şurasının enerji məsələləri ilə bağlı fövqəladə iclasının yekununda mətbuat konfransı zamanı deyib.**

O, ötən həftə Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenlə birgə Azərbaycana səfərini xatırladıb. "Biz Azərbaycanda 2027-ci ilədək Aİ-yə qaz tədarükü həcminin iki dəfədən çox artırılması barədə razılıq əldə etdik. Artıq bu il tədarükün 4 milyard kubmetr artmasını gözləyirik", - deyə o bildirib. Avrokomissar əlavə edib ki, Aİ-nin hazırda ABŞ, Kanada, Norveç, Misir və İsraillə qüvvədə olan sazişləri, Qətər və Əlcəzairlə uzunmüddətli tərəfdaşlığı var. "Bundan başqa, biz Nigeriyadan mayeləşdirilmiş təbii qaz idxalının artırılması imkanını nəzərdən keçiririk", - K.Simson deyib.



# İcra hakimiyyətləri ləğv olunmalıdır

***Azərbaycan Milli İstiqlal Partiyasının lideri, istiqlalçı deputat Etibar Məmmədov hafta.az-a bu dəfəki müsahibəsində ölkədə Rusiya "5-ci kalon"un fəallığı, yerli icra hakimiyyətləri sisteminin dəyişdirilməsi, yerlərdə idarəetmə qurumlarına ictimai nəzarət, bundan əlavə, ABŞ-ın Qarabağ məsələsinin yekun həllinə münasibəti, Rusiyadan Azərbaycana gözlənilən təhlükə və s. haqda danışdı.***

## Müsahib

***-Etibar bəy, son müsahibələrinizdən birində Rusiyanın Azərbaycandakı "5-ci kalon"unun fəallığından danışmısız. Sizcə, ölkədə yaşanan bir sıra neqativ olayların, bəzi məmur özbaşınalığı hallarının artmasında da həmin qüvvələrin rolu varmı?***

*Hesab edirəm ki, icra hakimiyyətləri ləğv olunaraq vilayətlər və valilik sisteminə keçirilməlidir*

*Moskva öz iddialarını genişləndirəcək, ən zəif nöqtəni taparaq oradan yeni işğal prosesinə başlayacaq*

*Üzdə "Ermənistanla Azərbaycan arasında danışıqların tərəfdarıyıq" deyirlər, amma digər tərəfdən buna maneçilik törədirlər*

-Əvvəla, deyim ki, "5-ci kalon" yalnız Rusiyaya aid deyil. Moskva ilə yanaşı, İranın da Azərbaycanda təsir dairəsi var. Və həmin ölkələrə meyilli adamlar da var. Vəzifələrdə də təmsil olunanlar çoxdur. Və təbii ki, Azərbaycandakı neqativ hallarda onların barmağı da var, rolu da var... Onlar tərəfindən müxtəlif sahələrdə müxtəlif formalarda sabotajlar da təşkil olunur. Həmçinin təxribatlar törədilir...

***-Əvvəllər korrupsiya və digər ittihamlarla işdən azad edilmiş, yaxud həbs olunmuş nazir və icra hakimiyyəti başçılarının Rusiya və ya digər ölkələrlə bağlılığı ehtimalı varmı?***

- İşdən çıxarılan, yaxud həbs olunanların hamısının Moskva ilə bağlı olması vacib deyil. Onların arasında xaricə bağlı olanlar da var, özləri üçün işləyənlər də var...

***-İcra başçılarından söz düşmüşkən, Azərbaycanda yerlərdə icra hakimiyyəti sisteminin dəyişilməsi və onların bütün funksiyalarının yerli özünüidarəetməyə, yəni bələdiyyələrə verilməsinə necə baxırsız? Belə bir islahat keçirilərsə, korrupsiya və məmur özbaşınalığının da minimal həddə enməsinə təsir göstərərmi?***

-Bu, çox vacib məsələdir. Və günün tələbidir ki, bu idarəçilik forması dəyişsin. Hesab edirəm ki, icra hakimiyyətləri ləğv olunaraq vilayətlər və valilik sisteminə keçirilməlidir. Valilər də yerli idarəetmə qurumlarının fəaliyyətinin qanunlara uyğunluğuna nəzarət etməlidir. Qalan məsələ və funksiyalar isə yerli hakimiyyətlərə, yəni bələdiyyələrə verilməlidir. Bələdiyyələrin səlahiyyəti artırılmalıdır. Onlar seçkili olmalıdır. Eyni zamanda fəaliyyətləri də şəffaf olmalıdır ki, ictimai nəzarət də mümkün olsun....

***- Azərbaycan Prezidenti bu günlərdə Lerik, Masallı və Göygöl rayonlarına təyin olunmuş yeni icra hakimiyyəti başçılarını qəbul edərkən belə deyib: "Rəhbərlik edəcəyiniz rayonlarda işlərin daha yaxşı getməsi üçün əlbəttə ki, ictimai nəzarət olmalıdır. Siz ictimai nəzarətdən çəkinməməlisiniz. İctimai nəzarət, ictimaiyyətin fəallığı, mövcud olan problemlərə dövlət orqanlarının diqqətinin cəlb edilməsi sizin işinizə kömək göstərəcək". Siz bir müxalif partiyanın lideri kimi necə düşünürsüz, ictimai nəzarət gerçəkdə hansı formada, məzmunda olmalıdır?***

-İctimai nəzarətin bir neçə forması var; mətbuat vasitəsi ilə, seçkili orqanlar vasitəsi ilə və inzibati qaydada... Bunun üçün seçkili orqanlar da normal işini bərpa etməlidir. Yəni seçkilər keçirilməlidir. Və yeni özünüidarə strukturları həmin icra strukturlarına nəzarət etməlidir və icra strukturları da onların qarşısında hesabatlı olmalıdır. Bu məsələnin bir tərəfi...



**Etibar Məmmədov,**
Azərbaycan Milli İstiqlal Partiyasının lideri, istiqlalçı deputat

Və mətbuatın da fəaliyyəti qanun çərçivəsində bu işlərə nəzarətə imkan yaratmalıdır. Ən əsası da mətbuatın fəaliyyəti ciddi nəzərə alınmalı, onların neqativ hallar barədə verdiyi siqnallar yoxlanılmalıdır. Ancaq təəssüf ki, çox zaman yerlərdə mətbuat nə danışır, danışsın, buna heç fikir verən yoxdur.

Seçkili orqanların nəzarətinə gəldikdə, parlament nəzarəti bərpa olunmalıdır. Yəni hökumət parlamentə əsl mənada hesabatlı olmalıdır. Bu şəkildə ictimai nəzarət həyata keçirilə bilər. Yalnız şikayətlər əsasında real ictimai nəzarət yaratmaq mümkün deyil...

-İyulun 25-də Blinken dövlət başçısı ilə danışdı və Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini bildirdi. Lakin bu yandan ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi müəyyən ikibaşlı çıxışlar edir, münaqişənin mövcudluğundan dəm vurur. Bunu necə dəyərləndirirsiz?

-Təəssüf ki, Amerika son vaxtlar Qarabağ məsələsində Ermənistanın tərəfdaşı kimi çıxış edir. Və faktiki olaraq Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına maneçilik törədir. Və yenidən ATƏT-in Minsk qrupunun bərpası və həmin qrup çərçivəsində məsələlərə yenidən baxılması təşəbbüsü ilə çıxış edir. Ona görə də üzdə "Ermənistanla Azərbaycan arasında danışıqların tərəfdarıyıq" deyirlər, amma digər tərəfdən buna maneçilik törədirlər...

***-Açıqlamalarınızdan birində deyirsiz ki, Rusiya Ukraynada qalib gələrsə, Azərbaycana qarşı da iddialara hazır olmalıyıq. Bəs belə olan halda aramızda qarşılıqlı yardım barədə bir neçə sənədlərin də bağlanmış olduğu qardaş Türkiyə hansı mövqe tutacaq, sizcə? Rusiya bu NATO ölkəsi ilə qarşı-qarşıya gəlməkdən ehtiyat etməyəcək ki?***

-Türkiyənin buna münasibəti məsələnin ikinci tərəfidir. Əgər Rusiya Ukraynada istəyinə, yəni Ukraynanın parçalanmasına və bunun dünya tərəfindən tanınmasına nail olsa, imperiya sərhədlərinin bərpası artıq Rusiyada milli ideyaya çevrilməklə rəsmiləşəcək. Və bəhs edilən sərhədlərin içərisində Azərbaycan ərazisi də var, Orta Asiya ölkələri də var. Ona görə də Moskva öz iddialarını genişləndirəcək, ən zəif nöqtəni taparaq oradan yeni işğal prosesinə başlayacaq. Ondan sonra isə həmin işğal prosesini genişləndirməkdə davam edəcəkdir. Və yaxşı ki, Azərbaycanla Türkiyə arasında qarşılıqlı yardım haqqında sənədlər var, razılaşmalar, müqavilələr var. Ancaq həmin sənədlərin işləməsi öz yerində olmaqla Azərbaycan bir dövlət, bir cəmiyyət olaraq bəhs edilən təhlükəni hiss edib ona hazır olmalıdır. Yəni yalnız müttəfiqlərimizə arxayın olmaqla Rusiyanın işğal iddialarına qarşı müqavimət göstərə bilmərik. Daxili birlik, daxili sabitlik və daxili müqavimətə hazırlıq daim bir nömrəli vəzifə olmalıdır...

***-Təbii ki, Kremldən Azərbaycana qarşı iddialar irəli sürüldüyü halda "5-ci kalon" xüsusi fəallıq göstərəcək...***

- Təbii, bu qüvvələr daxildə sabotaj da edəcəklər və vaxtı, məqamı gələndə Azərbaycan dövlətinə arxadan zərbə də vuracaqlar... Rusiya və s. ölkələrin "5-ci kalon"larını neytrallaşdırmaq hazırda günün tələbidir.

✍ **Sultan Laçın**

# İnvestorlara "bir pəncərə" prinsipi əsasında xidmətlər göstəriləcək

**Dövlət qurumları tərəfindən investisiya fəaliyyətinin həyata keçirilməsi qaydası hazırlanacaq. Bu, Prezident İlham Əliyevin "İnvestisiya fəaliyyəti haqqında" qanunun tətbiqi barədə Fərmanında əksini tapıb.**



Fərmana əsasən, Nazirlər Kabineti dövlət qurumları tərəfindən investisiya fəaliyyətinin həyata keçirilməsi qaydasının layihəsini beş ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Nazirlər Kabinetinə investisiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı investorlara göstərilən xidmətlərin rəqəmsallaşdırılması və "bir pəncərə" prinsipi əsasında göstərilməsi ilə bağlı təkliflərini üç ay müddətində, investisiya fəaliyyətinin təşviqi ilə bağlı təkliflərini də beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək də tapşırılıb.

Milliləşdirmə və investisiyanın dövlət tərəfindən alınmasına qarşı təminat qaydası müəyyənləşir. Qanuna əsasən, investisiyanın dövlət ehtiyacları üçün alınması, habelə Mülki Məcəllə ilə nəzərdə tutulan rekvizisiya istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində investisiyanın və investisiya qoyuluşunun investorun razılığı olmadan alınmasına və milliləşdirilməsinə yol verilməyəcək. İnvestisiyanın milliləşdirilməsi və dövlət tərəfindən alınması zamanı ayrı-seçkiliyə yol verilməyəcək. Milliləşdirmə və investisiyanın dövlət tərəfindən alınması əvəzində investorlara "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanuna uyğun olaraq kompensasiya ödəniləcək. Ödəniləcək kompensasiya investisiyanın milliləşdirilməsi və ya dövlət tərəfindən alınmasından və ya bunların ictimaiyyətə məlum olmasından (hansı daha tez baş verərsə) sonra bilavasitə əvvəlki vaxtda investisiyanın ədalətli bazar dəyərinə uyğun müəyyən olunur və gecikdirilmədən xarici investisiya üçün sərbəst dönərli valyutada, yerli investisiya üçün isə investisiyanın qoyulduğu valyutada ödəniləcək.

# "Dostluq" ordenini dost diqqəti kimi qəbul edirəm

***Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çoxillik səmərəli fəaliyyətinə görə, Reza Deqati "Dostluq" ordeni ilə təltif edilib. Hafta.az bununla bağlı dünya şöhrətli fotoqrafdan müsahibə alıb, təəssüratlarını bölüşüb...***

***- Reza bəy, Azərbaycan Prezidenti sizi "Dostluq" ordeni ilə təltif etdi. Bu sizin üçün nə deməkdir?***

- Prezidentin məni "Dostluq" ordeni ilə təltifini bütün Azərbaycanın xoş sözləri, dostluğu kimi qəbul edirəm. Hesab edirəm, Prezidentin etdiyi çıxışlar bütün dünya azərbaycanlılarının sözləridir. Belə bir ordenlə təltif olunduğuma görə çox şad oldum. Bu mükafat, bu dəyər mənə daha da qüvvət verdi, böyük işlər görməyə həvəsləndirdi. Əlbəttə, "Dostluq" ordenini dost, qardaş diqqəti kimi qəbul edirəm.



**Reza Deqati,**
məhşur fotoqraf

***- 20 Yanvar hadisələrindən tutmuş, Xocalı soyqırımı və bu gün torpaqlarımızın işğaldan azad olunduğu günlərədək hər zaman Azərbaycanlasınız. 44 günlük müharibədə siz də öz fotoaparatınızla iştirak etdiniz. Vətən Müharibəsi sizin üçün hansı fonu yaratdı?***

- Vətən müharibəsi bütün dünya azərbaycanlılarının müharibəsi idi. Müharibə nə təkcə qarabağlıya, nə də təkcə Azərbaycana aid deyildi. Torpaqların işğalı 30 il idi ki, dünyada yaşayan azərbaycanlıların ürəyində bir tikan kimi qalmışdı. Torpaqlar işğal olunmaqla yanaşı, 1 milyon azərbaycanlı öz evindən qovulmuşdu. 30 il idi, bu tikan hamımızın ürəyində irinləmişdi. Bu Vətən müharibəsi o tikanı çıxardı... Yaralarımız sağalır. İndi əldə olunan Qələbəmizlə bağlı ürəyimiz şaddır. Bilirəm ki, bütün azərbaycanlılar şaddırlar.

*Prezidentin məni təltif etməsini Azərbaycanın xoş sözləri, dostluğu sayıram...*



Bu gün istəyirəm ki, müharibədən sonra bütün fəaliyyətimi Qarabağa həsr edim. Ərazilərimizin işğalı zamanı hansı dağıntılara, hansı vandalizmə məruz qoyulduğunu dünyaya çatdırım.

Düzdür, hər bir müharibənin özünün faciələri, dağıntıları olur. Müharibələrdə insanlar ölür, qaçqın, köçkün düşür. Birinci Qarabağ müharibəsi dünyanın başqa müharibələrindən fərqli idi. Mən burada gördüm ki, Qarabağ müharibəsində Azərbaycan insanlarının qarşılaşdığı erməni vəhşiliyi dünyanın heç bir yerində olmayıb. Birinci Qarabağ müharibəsində Azərbaycan əhalisi məcburi köçkünə çevrildi, erməni silahlıları insanları öz evlərini tərk etməyə məcbur etdilər. Ermənilər qadınlara, uşaqlara işgəncə vermişdilər.

II Qarabağ müharibəsində ərazilər işğaldan azad olunandan sonra, mən eyni vəhşiliyin o torpağa, tarixi abidələrə, qəbiristanlıqlara, təbiətə qarşı edildiyini gördüm.

Qarabağın hər yerini addım-addım gəzmişəm. Bu dəhşətləri dünyaya göstərmək istəyirəm. İstəyirəm dünya görsün və bilsin.

***- Bu günədək Qarabağla bağlı hansı layihələriniz olub və hazırda hansı yeni layihələr üzərində işləyirsiniz?***

- Təbii ki, Azərbaycanda həyata keçirdiyim layihələrlə Qarabağda törədilən vandalizmi - abidələrin dağıdılmasını, məzarların sökülməsini, torpaqların minalanmasını araşdırıram. Bütün bu faktları dünyaya çatdırmaq istəyirəm. Qoy dünya bunu görsün. Görsün ki, erməni vandalları Azərbaycan torpaqlarına qarşı hansı cinayətləri törədiblər.

İşğaldan azad olunmuş rayonlarda - qəbiristanlıqda olmuşam. Ermənilər insan sümüklərini, kəllələrinin qəbirdən çıxarıb qırağa atmışdılar. Mən belə şey görməmişdim. Bir də bu tarixi abidələrin dağıntılarını görəndə ürəyim dözmədi. Ermənilər o abidələrdə, məscidlərdə donuz saxlayıblar. Ağdamda, Şuşada bu vandalizmin şahidi oldum.

Hər dəfə Şuşaya gedib, hər dağıdılan küçənin və bir də bərpa işləri aparılan abidənin qarşısında duranda, şəkillər çəkəndə 1992-ci ilin o ağır günləri yadıma düşür.

Bu yaxınlarda Şuşada festivallarda iştirak etdim. Fotolar şəkdim. Dünyaya mesajım oldu: "Həyat qayıdıb". Onu gərək dünya görsün. Bu, bir daha onu göstərir ki, aparılan bərpa işlərini dünya görməlidir. Dünya görməlidir ki, 30 il davam edən münaqişədə ermənilər, guya özlərininki hesab etdikləri abidələri, evləri dağıdıblar. Azərbaycan erməniləri sülhə çağırır. Bu gün müşahidələrimdə və çəkdiyim şəkillərdə dünyaya bunu çatdırmaq istəyirəm.

Yaxud Heydər Əliyev Mərkəzinin parkında "Odun ruhu. Vizual səyahətə dəvət" adlı sərgim keçirilib. Fondun dəstəyi ilə Azərbaycanı gəzmişəm və bu diyarın gözəlliklərini, zənginliyini, mədəniyyətini fotolarda əks etdirməyə çalışmışam. Bu dəstəyə görə Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevaya təşəkkürümü bildirirəm. Çox belə layihələrim, sərgilərim olub...

Bütün bunlarla yanaşı, işğal faktı, Qarabağla bağlı görülən işlərin hamısı bir mövzunun üzərinə gəlir. O da dünyada gedən informasiya müharibəsi ilə bağlıdır.

Müharibə gedən zaman Prezident dünya mediasına çox gözəl müsahibələr verdi və Azərbaycan həqiqətlərini çatdırdı. Azərbaycan birdən ayağa qalxdı və göstərdi ki, həm güclü Prezidenti var, həm də güclü ordusu var. Rəhbərlik yüksək iradə ortaya qoydu və müharibəni uddu.

Gələcək planlarımdan biri budur ki, Şuşada Beynəlxalq Fotoqraflar Məktəbi yaradım. Dünyanın ən böyük fotoqrafları Şuşaya gəlsinlər və ermənilərin törətdikləri dağıntıları, vəhşiliyi çəkib dünyaya göstərsinlər. Paralel olaraq istedadlı azərbaycanlı uşaqlar o məktəbdə öyrənsinər.

İndi torpaqların minalanması haqqında kitab hazırlamağa başlayıram. Eləcə də işğaldan azad olunmuş ərazilərdə məzarların necə vandalcasına dağıdılması, tarixi abidələr haqqında bir kitab hazırlamağa başlayıram.

Bu faktların dünyaya çatdırılması təşkilatlanmış, nizamlı şəkildə aparılmalıdır. Bir daha qeyd edim ki, bu istiqamətdə informasiya müharibəsini qazanmaq üçün vahid informasiya mərkəzində toparlanmaq və informasiya sahəsində qazanmaq üçün bütün səylərin birləşməsinə ehtiyac var.

✍ **Tahirə Qafarlı**

# Nazirlə təhsil gündəmi

***Təhsil naziri Emin Əmrullayev dünən keçirilən brifinqdə təhsil gündəmi ilə bağlı bir sıra önəmli açıqlamalar verib. Nazirkoronavirusa yoluxmaların artması fonunda məktəblərin sentyabrda açılmayacağı ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib. O bildirib ki, pandemiya dövründə sürprizlər həmişə olur."Artıq iki il ərzində kifayət qədər təcrübə toplamışıq. Ötən il təhsili ümumilikdə dayandırmadıq. Düşünürəm ki, yoluxmalar artarsa, yenə həmin təcrübə tətbiq oluna bilər. Payız aylarında yoluxma arta bilər. Bu, ayrı-ayrı məktəblərdə siniflərin müvəqqəti bağlanmasına səbəb ola bilər. Lakin təhsilin tamamilə bağlanması nəzərdə tutulmur", - nazir vurğulayıb.***

## Aktual

### Tədris müddəti

"Tədrisin nə vaxt başlayıb, nə vaxt bitməsinin təhsilin keyfiyyətinə heç bir aidiyyəti yoxdur". Təhsil naziri Emin Əmrullayev brifinqdə deyib.

Nazir bildirib ki, dərslər sentyabrın 1-i başlayıb, mayın 31-i bitsə, təhsil daha keyfiyyətli olmayacaq: "Bunun onunla əlaqəsi yoxdur. Burada arqumentlər havanın temperaturu ilə bağlıdır. Təhsilin keyfiyyətinə təsir edən ən əsas məqam təhsil günlərinin sayıdır. Bizim cəmiyyətimiz hələ ki təhsil günlərinin sayının artmasına ürəkli yanaşmır. Müqayisə üçün deyim ki, hamının bizə nümunə göstərdiyi Sinqapur və Koreya təhsilində təhsil həftələrinin sayı 42-44 həftədir. Bu bizdə hazırda 36 həftədir. Bu ortadır. Daha çox olması daha yaxşı olardı. Amma bunun uzadılmasına bizim cəmiyyətimiz ağrılı məsələ kimi baxır. Son dövrlərdə Təhsil Nazirliyinin apardığı ən böyük islahat təhsili mayın 31-dən iyunun 15-nə qədər uzatmaq olub. Ən çox qınanılan islahat da bu olub. Bizdə təhsil almağın insan sağlamlığına vura biləcəyi zərərlərlə bağlı cəmiyyətdə çox ciddi miflər mövcuddur. Uşağın gözləri zəifləyə bilər, oxumaqdan uşaq havalana bilər. Uşaq nə qədər çox tədrislə məşğul olarsa, bu uşağın gələcəyi daha yaxşı olar".

### Məktəbli formaları

**"Məktəbli formasının qiymətini Təhsil Nazirliyi yox, bazar müəyyən edir". Emin Əmrullayev deyib.**

Nazir qeyd edib ki, forma ilə dərsə gəlməyən şagirdin məktəbə buraxılmayacağı doğru deyil: "Bu tövsiyəedici qaydalardır. Şagirdin ürəyi istədiyi paltarda da məktəbə gəlməsi yaxşı fikir deyil. Direktorun isə məktəblini hansısa forma geyinməyə məcbur etmək səlahiyyəti də yoxdur. Qaydanın mahiyyəti odur ki, şagirdlər arasında fərq olmasın. Forma olanda kimsə özünün varlı olmasını məktəbdə göstərə bilmir. Amma kimsə də məktəbə formada gəlmirsə, Nazirlik gedib onu məktəbdə yoxlamayacaq, yaxud əksinə direktorun da ixtiyarı yoxdur ki, şagirdi hansısa forma geyinməyə məcbur etsin".

### AMEA-nın taleyi

Təhsil naziri Emin Əmrullayev AMEA-nın Təhsil Nazirliyinə birləşdirilməsi məsələsinə də münasibət bildirib. Deyib ki, müxtəlif ölkələrdə müxtəlif təcrübələr var. O qeyd edib ki, AMEA-nın Təhsil Nazirliyinə birləşdirilməsi məsələsinə dair sualı məmur olaraq cavablandırmaq onun səlahiyyətində deyil.

### Xarici dildə təhsil

"Azərbaycanda icbari təhsili dövlət Azərbaycan dilində təmin edir". Emin Əmrullayev brifinqdə deyib.Nazir bildirib ki, Təhsil Nazirliyi olaraq, hər bir vətəndaş qarşısında borcları uşaqları təhsilə Azərbaycan dilində cəlb etməkdir:

"Heç yerdə yazılmayıb ki, uşağı xarici dildə təhsilə cəlb etmək icbari məsuliyyəti, yaxud vəzifəsi var. Övladını rus bölməsinə qoymaq istəyən valideynlər tərəfindən bu düzgün anlaşılmır. Bizdə bəlli sayda rus bölməsində təhsil verən siniflər var və bu say sabitdir. Yenə də müxtəlif bölgələrdə əhalinin sıxlığından asılı olaraq, biz müxtəlif reallıqlarla üzləşirik. Bizim Naftalan şəhərində rus bölməsi sinfində 5 nəfər oturur. Amma əhalinin son dövrlər çox köçdüyü Xırdalan, Masazır kimi ərazilərin məktəblərində ənənəvi olaraq rus bölməsi olmayıb. Birdən-birə ora 10 minlərlə insan köçüb uşaqlarını rus bölməsinə qoymaq istəyəndə rus bölməsinin sayı artmır. Bizim əgər 100 yerimiz varsa, bunu 200 adam istəyirsə, biz 100 nəfərə yox demək məcburiyyətindəyik. Valideyn özünün evinin yanında uşağını Azərbaycan bölməsinə qoya bilər, oxuda bilər. Bu, onun hüququdur. Amma rus bölməsinə istəyirsə, o uşağını harada yer varsa, ora apara bilər".



### Abituriyent intiharları

Təhsil naziri qəbul imtahanlarında bal toplaya bilmədiyi üçün intihar edən abituriyentlərlə bağlı məsələyə də münasibət bildirib. Nazir deyib ki, hər bir şagirdin, uşağın ölümü, intiharı faciədir.

"Sözün düzü, biz bunu hər zaman aşağı bal yığmış şagirdlər arasında görmürük. Təhsilin bütün mahiyyəti şagirddir. Bu mənada istər valideynlər, istərsə də müəllimlər başa düşməlidir ki, həyatın mənası ali təhsil müəssisəsinə qəbul deyil. Birmənalı olaraq uşaqlara qarşı qısnama qəbuledilməzdir. Hər bir adamın öz övladına dəstək olması onun valideyn borcudur", - nazir əlavə edib.

### Yuxarı sinif şagirdlərinin dəyişməsi

*"Heç yerdə yazılmayıb ki, uşağı xarici dildə təhsilə cəlb etmək icbari məsuliyyəti, yaxud vəzifəsi var*

*Azərbaycanda son illərdə tətbiq edilmiş ənənəvi bağça modelindən başqa iki model də tətbiq edilir*

**"Bəzən görürük ki, Bakının mərkəzində təhsil alan 10-11-ci sinif şagirdləri kütləvi şəkildə, məsələn, Qaradağda yerləşən bir məktəbdə təhsil almağa başlayır. 100-ə yaxın uşaq çox ucqarda olan bir məktəbə, hansısa keyfiyyəti ilə seçilməyən məktəbə kütləvi şəkildə gedirlər". Emin Əmrullayev deyib.**

Nazir qeyd edib ki, sistem elektronlaşdırıldığı üçün indi bunu daha rahat görür və inzibati qaydada müdaxilə edə bilirlər: "Bu gün təəssüf ki, şagirdlər və valideynlər üçün əsas məqsəd ali təhsil müəssisəsinə daxil olmaqdır. Bu, özü-özlüyündə çoxlu təşviş və rasional olmayan davranışlar yaradır. Bunun bir növü özəl təhsildir. Şagirdlərin bu gün repetitorlara verdiyi pullar özəl təhsil müəssisələrində olan təhsil haqqından az deyil. Ancaq niyə valideynlər bunu seçmir, başa düşmək çətindir. İkinci məsələ məktəbin içində nələr edilməsi ilə bağlıdır. Biz əgər mərkəzləşmiş imtahan ediriksə, repetitorluq üçün hər zaman münbit şərait olacaq. Yəni burada təhsilin keyfiyyəti rol oynamayacaq. Şərti olaraq bu gün Azərbaycan təhsilinin keyfiyyəti 200-300 baldır. Sabah bu bal qalxıb 360 da olsa, yenə də daha çox bal yığan qəbul olacaq. Ona görə də hər zaman kimin artıq pulu varsa, repetitor yanına gedəcək. Bu fikrim çox müzakirələrə səbəb olacaq. Amma istənilən halda insanlar repetitor yanına gedəcək. Çünki bizdə əsas kimdənsə yaxşı olmaqdır. Özünün yaxşı olmasına baxan yoxdur".

### İkinci pulsuz ali təhsil

**Təhsil naziri Emin Əmrullayev bir şəxsə ikinci, üçüncü dəfə pulsuz ali təhsil almaq imkanı verilməsi ilə bağlı məsələyə münasibət bildirib. Deyib ki, bu, hələ mümkün deyil.**

"Bizdə əhalinin böyük hissəsi bir dəfə ali təhsil ala bilmirsə, düşünmür ki, bir adama bunu 2-3 dəfə tanıyıb, o birinə tanımamaq, yaxud da hərəyə iki dəfə tanımaq düz olmaz. Dövlət başçısının bu sahəyə xüsusi qayğısı nəticəsində ali təhsilin dövlət tərəfindən maliyyələşməsinin payı əhəmiyyətli dərəcədə artır. Builki qəbulda 60% dövlət tərəfindən maliyyələşir. Ödənişli əsaslarla təhsil alanlar üçün təhsil tələbə krediti var".

### Məktəbəqədər təhsil

"Məktəbəqədər təhsilin əhatəliliyini artırmaq prioritetdir". Emin Əmrullayev brifinqdə deyib.

Nazir bildirib ki, bu gün bağça deyilən model var: "Dünyada bağçadan fərqli bir çox modellər mövcuddur. Azərbaycanda son illərdə tətbiq edilmiş ənənəvi bağça modelindən başqa iki model də tətbiq edilir. Bunlardan biri daha geniş tətbiq olunur. Bu məktəblərdə tətbiq edilən məktəbə hazırlıq sinifləridir ki, biz artıq bu sahədə 85 % göstəriciyə çatmışıq. 2015-ci ildə bu rəqəm 45 % idi. Bu istiqamətdə 100%-ə çatmaq istəyirik. İkinci istəyimiz odur ki, artıq 5 yaşlıları cəlb etmişiksə, bundan sonra 4 yaşlıları, daha sonra isə 3 yaşlıları cəlb edək. Daha sonra üzü aşağı gedilə bilər. Bunun üçün ikinci modeli tətbiq edirik. Bu icma əsaslı məktəbəqədərdir ki, burada da 16 min uşağımız cəlb olunub. Bu yeni iş yerləri və uşaqların daha yaxşı təhsili deməkdir".

Məktəbəqədər təhsil müəssisələri ilə bağlı işlər davam edir. Əsasən biz 4 istiqamətdə işimizi qurmuşuq. Nazir deyib.

Bildirib ki, artıq 1667 məktəbəqədər təhsil müəssisəsini özündə birləşdirən məlumat sistemi yaradılıb: "Bu bizə imkan verir ki, məktəbəqədər təhsil müəssisələrinə qəbulu ilk dəfə elektron formada həyata keçirək. Bu qəbulda şəffaflığın artırılmasında çox ciddi addımdır. Hazırda 36 746 uşaq üçün yerimiz var. Bu bölgələr üçün fərqli paylanıb. İyul ayının 25-nə olan məlumata görə 17 246 uşağın məlumatı bizim sistemə valideynlər tərəfindən sistemə daxil edilib. Burada növbəlilik sistemi tətbiq olunacaq".

**Azad Əliyev**

# Şəhid olmağımla bağlı xəbər yayılmışdı...

***"Biz döyüşlərə böyük ruhla, sevinclə qatılmışdıq. Döyüşə gedəndə bir-birimizlə zarafatlaşır, sevinir, gülürdük, sanki toy-bayrama gedirdik. Bu döyüş bizə bir yuxu kimi gəlirdi. Nəhayət, 30 ilin acısına, həsrətinə son qoyulacaqdı. Analarımız, bacılarımız, gəlinlərimizin köçkünlük həyatına son qoyulacaqdı. Bir əsgər olaraq düşmənin torpaqlarımızda törətdiyi vəhşiliyin qisasını almaq istəyirdik və aldıq da. Böyük qürurla döyüşə girdik və qalib olduq. Mən beş Vətən Müharibəsi medalı ilə təltif olunmuşam".***

Bu sözləri hazırda həqiqi xidmətdən artıq hərbi qulluqçu, çavuş, 44 günlük Vətən müharibəsinin əsgəri - qazi Eldar Quliyev hafta.az-a açıqlamasında bildirib.

*"3 saat erməni səngərində qalıb, təxliyə olunduq*

Qazi döyüş zamanı qarşılaşdığı bir hadisəni unuda bilmədiyini, özünə bağışlamadığını deyib.



"Tankçı olmuşam. Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində döyüşlərdə iştirak etmişəm. Tankımız vurulanda modernləşmiş BTR-də 9 nəfər heyətimiz var idi. Döyüşə girənlərdən 8 nəferi yanıq xəsarəti aldı. Komandir Əli Həsənov şəhid oldu. Düşmənin atdığı mərmi 95 santimetr divardan içəri girib partlayır, dəmiri əridir. Həmin vaxt erməni mərmisi maşının ön hissəsindən girib arxa tərəfindən çıxdı. Mən ağır xəsarət almamışdım. Tankdan çıxanda huşsuz vəziyyətdə qalan digər 3 nəfər hərbçimizi də oradan çıxardım.

Alovun içinə yenidən qayıdıb komandirimi çıxarmaq istədim. Bu günə qədər də özümə bağışlaya bilmirəm. Gözümün qabağında şəhid oldu. O vaxt üz-gözüm, ayaqlarım yandı, amma komandiri tankdan çıxara bilmədim.

Həmin döyüşdə yaralanandan sonra, 3 saat erməni səngərində qalıb, təxliyə olunduq. Bizi Füzuli rayonuna xəstəxanaya apardılar. Şəhid olmağımla bağlı xəbər rayona yayıldı".

E.Quliyev hazırda hərbi xidmətinə davam etsə də, sağlığında olan problemlərə görə çox əziyyət çəkdiyini bildirib. Qazi sağlamlığını itirməsi ilə əlaqədar əlillik təqaüdünə çıxmaq istəsə də, hələlik bu müraciətinə müsbət cavab verilməyib.

E.Quliyev deyir ki, döyüşdən sonra bir nəfər sahibkar ona torpaq hədiyyə edib. Bu günə qədər də həmin torpaq sahəsini öz adına rəsmiləşdirə bilmir.

"12 min 800 yaralı əsgərimizin hamısı qazidir. Mən 5 medalın sahibi olsam da, heç bir quruma müraciət etmək istəmirəm. Deyəcəklər ki, döyüşdüyünə görə bundan istifadə edib özünə güzəştlər istəyir".

Qazi deyir ki, müharibə gedən vaxt bir neçə dəfə yaralanıb və dövlətdən ilk yardımı alaraq sağalıb.

"O vaxtlar bütün sənədlərim səhv yazılmışdı. Xəstəxanalarda döyüşdə aldığım xəsarətlərin heç biri qeyd olunmamışdı. Birində ata adı səhv, birində doğum taixi səhv... Bütün bunları yenidən düzəltdim. Bədənimdə 11 qəlpə var. Əvvəl üçünü çıxarmışdılar, üçü isə bədənimdə qalır, çıxarmaq mümkün deyildir. Həmin qəlpələr çox ağrı verir. Əslində, mənə əlillik təyin olunmalıdır. Hospitalın mənə verdiyi sənədə əsasən qapalı beyin travması, baş-beyin silkələnməsi almışam. Məndə hüşsuzluq, halsızlıq, əsəbilik var. Sağ qulağım eşitmir, eynək taxıram. Protez almaq üçün müraciət etdim. Dedilər ki, əlilliyim təyin olunmayanadək biz sizə protez verə bilmərik".

Hazırda 10 nəfər ailə üzvü ilə kirayədə qalan qazi bu problemlərin həlli üçün hara müraciət edəcəyini bilmir.

"Döyüşdən həftələrsonra gəldilər ki, sizə nə kömək etmək lazımdır? Mən də dərdimi dedim. Kirayədə qaldığıma görə, mal-heyvan saxlamağa şəraitim yoxdur. Ona görə də müraciət etdik ki, yoldaşımın evdə şirniyyat bişirib-satması üçün müəyyən ləvazimatların ayrılmasına kömək edilsin. Bu günə qədər xəbər yoxdur. Bir dəfə də gəlib soruşdular ki, əlillik dərəcəsi ayrılıbmı? Dedim yox. Mənə "Xidmətə yararlı sıradan biri" kağızı verilib. Dəfələrlə işdən akt bağlayıb məni Mərkəzi Hərbi Hospitala psixiatr yanına da göndəriblər".

**Tahirə Qafarlı**



**■ Ölkəmizdə səfərdə olan ABŞ Quru Qoşunlarının Avropa və Afrika Komandanlığının Quru Qoşunları Milli Qvardiyası komandanının müavini general-mayor Maykl Vikmanın rəhbərlik etdiyi nümayəndə heyəti hərbi hissə və Müdafiə Nazirliyinin Tibb İdarəsini ziyarət edib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.**

Tərəflər arasında keçirilən görüşlərdə Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlıq, eləcə də Oklohoma ştatı ilə "Ştatla Tərəfdaşlıq Proqramı"nı əhatə edən fəaliyyətlər çərçivəsində qarşılıqlı maraq doğuran məsələlər haqqında fikir mübadiləsi aparılıb. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.




**■ Azərbaycanda 10 və 50 qəpiklik metal pullar yenilənib. Mərkəzi Bankdan verilən məlumata görə, 10, 20 və 50 qəpiklik metal pul nişanlarının dizaynına Dövlət Gerbi və istehsal ili əlavə olunaraq yenilənməsi həyata keçirilib. Yenilənmiş 20 qəpiklik metal pul nişanının ötən ilin dekabr ayından tədavülə buraxılması təmin edilib.**

AMB yenilənmiş 10 və 50 qəpiklik metal pul nişanları isə bu gündən tədavülə buraxılmasını elan edib. Yenilənmiş metal pul nişanlarının texniki parametrləri hazırda tədavüldə olan eyni nominallı metal pul nişanına müvafiq olaraq dəyişməz olaraq saxlanılıb. Yenilənmiş metal pul nişanları hazırda tədavüldə olan eyni nominallı pul nişanları ilə paralel olaraq dövriyyədə olacaq və tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcək.



**■ Kəlbəcər rayonu ərazisində minaya düşən hərbi hissə komandiri İsbəndiyarov Vüqar Tofiq oğlunun son durumu məlum olub.**

Hafta.az-ın Modern.az-a istinadən məlumatına görə, hərbçinin sol ayağının dizdən aşağı hissəsi amputasiya olunub. Yaxınlarının bildirdiyinə görə, təcrübəli zabitin sağ ayağının aşağı ətraflarında sınıq və çıxıqlar meydana gəlib. Hərbi qulluqçunun ümumi vəziyyətinin stabil olduğu bildirilir. V.İsbəndiyarovun hazırda cərrahi əməliyyatda olduğu qeyd edilib. Xatırladaq ki, Kəlbəcər rayonunun işğaldan azad olunmuş ərazisində Müdafiə Nazirliyinin N saylı hərbi hissə komandiri polkovnik Vüqar İsbəndiyarov minaya düşüb. Vüqar İsbəndiyarov Cəmilli kəndində minaya düşərək ağır xəsarətlər alıb. Faktla bağlı Kəlbəcər hərbi prokurorluğunda cinayət işi açılıb.



**■ Hazırda Böyük Britaniyanın Baş naziri vəzifəsini icra edən Boris Conson NATO-nun yeni Baş katibi ola bilər. Bu barədə məlumatı Britaniyanın "The Telegraph" qəzeti yayıb. Bildirilir ki, Boris Consonun istefadan sonra vəzifəsiz qalması real görünmür.**

"Boris Consonun NATO-nun Baş katibi postuna namizədliyini irəli sürməsini müdafiə üzrə komitənin üzvləri Riçard Draks və Mark Fransua, eləcə də Böyük Britaniyanın Avropa İttifaqından çıxması üzrə keçmiş nazir Devid Cons dəstəkləyir", - deyə məlumatda qeyd olunub. Həmçinin qəzet yazır ki, ukraynalı deputatlar və Mühafizəkarlar partiyasından olan millət vəkilləri bu ideyanı dəstəkləyir.



**■ Azərbaycan Mərkəzi Bankı (AMB) cari ilin iyul ayında bank olmayan kredit təşkilatları, investisiya şirkətləri, lizinq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər və həyat sığortası şirkətlərinin mütəxəssisləri üçün cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (PL/TMM) məsələlərinə həsr olunmuş silsilə təlimlər keçirib. Bu barədə AMB-dən bildirilib.**

Bildirilib ki, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində qanunvericilik tələbləri və bu sahədə beynəlxalq standartlar" mövzusunda onlayn təşkil olunmuş bu təlimlərdə PL/TMM sisteminin mahiyyəti, vacibliyi, həmçinin bu sahədə beynəlxalq standartlar və qanunvericilik tələbləri geniş müzakirə edilib.



**■ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən Vətən müharibəsi iştirakçıları və şəhid ailəsi üzvlərindən ibarət daha 65 şəxs peşə hazırlığı kurslarına cəlb edilib.**

Nazirlikdən hafta.az-a verilən məlumata görə, kurslar əmək bazarının tələblərinə uyğun peşələr üzrə təşkil olunub. Peşə hazırlığına cəlb olunan işsiz şəxslərə kurs keçdiyi dövrdə Agentlik tərəfindən minimum əməkhaqqı məbləğində aylıq təqaüd ödənilir. Peşə kurslarını başa vuranların isə məşğulluğunun təmin olunması işləri aparılır. 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə genişmiqyaslı sosial dəstək tədbirlərinin bir istiqaməti kimi şəhid ailələri və müharibə iştirakçılarından ibarət 13,5 min şəxs aktiv məşğulluq proqramlarına, o cümlədən 8 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.

# Kraliça Beatrisin sevimli ulduzu oldum...

***Yıldız Usmanova (Yulduz Usmanova) sadəcə Özbəkistana və özbək xalqına məxsus deyil, o, dünyanın sevimlisidir. Haradansa oxumuşdum ki, 25 milyondan artıq diski satılıb, vətəni Özbəkistanda, Türkiyədə ən tanınmış sənətçilər onunla duet oxumaq istəyib. O, həm sənətin zirvəsindədir, həm də millətinin vurğunudur. Ədaləti ilə tanınıb və sevilib, uzun illər təqib olunub, qolları qandallanıb, vətənindən sürgün edilib və sair. Amma Yıldız Usmanova əzilməyib, daha da güclənib, dünya şöhrətini qazanıb, illərlə ayrı qaldığı xalqının yanına, öz evinə şərəflə və sözün əsl mənasında ulduz kimi dönüb. Olduqca mehriban, dostcanlı olan bu xanım sənətçinin barəsində uzun-uzadı danışmayacağam.***

***Buyuraq, misralara dönmüş müsahibəni birlikdə oxuyaq...***

## Aktual

- Azərbaycan musiqisi hər zaman öndə olub, sədaları hər yerdə eşidilib və çox istəyirəm ki, gələcəkdə də musiqinizin şöhrəti zirvələrdə olsun. Azərbaycan musiqisinin klassikləri olan Müslüm Maqomayev, Rəşid Behbudov, Zeynəb Xanlarova və digərləri dünyada məşhurdurlar.

***- Gələcəkdə Azərbaycanla müştərək hər hansı layihələriniz olacaq?***

- Hələlik, dəqiq heç nə deyə bilmərəm, amma bu gün buradayamsa və nələrisə səsləndirirəmsə, deməli, mütləq olacaq.

***- Qəfil gəldiniz, konsert verməyəcəksiniz?***

- Bu məndən yox, təşkilatçılardan asılıdır, təşkil etsələr, məmnuniyyətlə... İndi Şakira filan dəbdədir, amma bizim milli musiqilər tamam başqadır, əlbəttə, çağırsalar gələrəm.

***- Azərbaycanla Özbəkistan arasında mədəniyyət müstəvisində əlaqələr necədir, qənaətbəxşdir?***

- Çox istərdim ki, hər iki ölkənin mədəniyyət nazirlikləri mütəmadi olaraq oturub danışsınlar, birlikdə nə iş görə, hansı müştərək layihələri həyata keçirə bilərlər, bir qərara gəlsinlər. Avropadan, Amerikadan istənilən müğənnini gətirib konsertini təşkil etmək olar, amma onlar milli dəyərlərimizə cavab verə bilməzlər. Onların təqdim etdiyi sənətin necə deyərlər, görünüşü yaxşı ola bilər, amma içi bizə uyğun deyil.

***- Bayaq Şakiranın adını çəkdiniz, necə edək ki, bizim də müğənniləri onun kimi sevib, dinləsinlər?***

- Baxın, indi muğama dövlət qayğısı var, inkişaf etdirilir, çünki xalqlarımızın milli xəzinəsidir. Amma muğam və ya klassik musiqilərdən ibarət konsertlərə böyük tamaşaçı kütləsi yığmaq mümkün deyil. Dövrün tələbi başqadır, indi insanların zövqünü oxşamaq üçün hit mahnılar yazılmalıdır. Bunun üçün də xüsusi strategiya işlənilməlidir. Gənc müğənniləri irəli çəkmək, inkişaf etdirmək lazımdır.

*“Azərbaycan musiqisi hər zaman öndə olub, sədaları hər yerdə eşidilib*

***- Özbəkistan və Azərbaycan da daxil olmaqla, türk ölkələri sənətçilərinin iştirakı ilə musiqi festivalları keçirilsə yaxşı olmazmı?***

- Əlbəttə, çox istərdim olsun. Türk dünyasının ən məşhur, ən çox tamaşaçı auditoriyasına malik müğənniləri həmin festivalda mahnıları ilə öz sözlərini deməlidirlər. Festivalların harda keçirilməsinin isə əhəmiyyəti yoxdur, bir dəfə Türkiyədə, o biri dəfə Azərbaycanda, başqa bir dəfə Özbəkistanda və sair - bütün türk dövlətlərində keçirilə bilər. Əsas odur ki, qarşıya qoyulan hədəfə çatılsın.

***- Amma indi bir çox müğənnilər pulun əsirinə çevrilirlər...***

- Əsl sənətçi bunu etməməli, öz tərəfsizliyini qorumalıdır. Mənə varlı da eyni məbləği ödəyir, kasıb da. Ona görə də öz sözümü hər yerdə deyə bilirəm. Mən oliqarxların deyil, xalqın müğənnisiyəm - xalq artistiyəm. Şükür ki, heç vaxt xalqa yalan danışmamışam, ona görə də xalqım mənə etibar edir.

***- Müğənnilər üçün dəyişməz qaydalar var?***

- Biz Azərbaycanı çox sevirik, çünki Zeynəb Xanlarovanın mahnıları ilə böyümüşük. İndi isə gənc sənətçilərin dünyaya çıxması lazımdır. Mən Yıldız Usmanova stadionlarda konsertlər verdim, amma vətəndən uzaqda - qürbətdə yaşamalı oldum. Məcburən 10 il Avropada yaşadım. Amma bu 10 ilim hədər getmədi - Avropadan dünyaya açıldım. Özbəkistanda konsertləri stadionlarda verdiyim halda, Avropada 20-25 nəfəri güclə toplayırdım. Yəni hər şeyi sıfırdan başladım. Əsas odur qorxmayasan, möhkəm və iradəli olasan, hər şey düzələcək. Mən Yıldız ola bilərəm, amma əsas odur ki, milləti sevəsən və təbliğ edəsən, öz zəhmətinlə milli sənəti dünyaya yayasan. Məncə sənətçinin işi-qayəsi elə millətini tanıtmaqdır, başqa cür ola bilməz. Müğənni öz ifalarının hit olmasını gözləməməlidir. Bu ola da bilər, olmaya da. Kimsə suyun altında neçə balıq olduğunu deyə bilməz, bu da elə.

***- Müasir Azərbaycan müğənnilərindən kimləri tanıyırsınız?***

- Sadəcə bir-iki müğənnini tanıyırdım. Bilirsiniz, mən özüm mahnılar yazıram deyə, heç vaxt ifa üçün hardansa mahnı axtarmıram. Heç vaxt hansısa xalqın mahnısını oxumaq kimi həvəsim olmayıb. Hansı ki, indi plagiatlıq baş alıb gedir - bu mənə yaddır. Yalan nə deyim, deyim ki, onu tanıyıram, bunu tanıyıram, yox. Amma əlbəttə, artıq tanımağa başlayıram. Burada şairə Nazilə xanımla (Nazilə Səfərli - V.T.) tanış oldum, çox gözəl şeirləri var, mahnılar bəstələnir, Rəqsanə xanımı tanıdım.

***- Bayaq muğama dövlət qayğısından söz açdınız, amma dinləyicisinin az olduğunu dediniz. Bəs müasir mahnılarımız niyə kütlə toplamır?***

- Muğam böyük sənətdir, amma səmimi danışaq: bu gün insanların muğamlara sevgisi, həvəsi kütləvi deyil və ola da bilməz. Gənclərin dilini-düşüncəsini başa düşməli, onların zövqünü oxşayan mahnılar yazıb-oxumalıyıq. Amma burada mütləq musiqinin infrastrukturu milli müstəvidə qurulmalıdır. Məsələn, gənclər sevir deyə onlara ancaq rep oxuyaq, pop oxuyaq demirəm - bunlar başqalarından köçürmə olar. Əgər özül milli müstəvidə qurulsa, müasir mahnılarımızı da milli ruhda yaza bilərik. Yalnız bu halda yeni Zeynəb Xanlarovalar gələcək sənətə. Həm də bir olmalıyıq. Mən Nazilə xanıma da dedim: yazdığı gözəl şeirlərdən göndərsə, bir özbək müğənni olaraq onlara musiqi bəstələyərəm və inanıram ki, çox yaxşı mahnılar yaranar. Musiqinin dili, milləti olmaz. Musiqiyə ən çox lazım olan ürəkdir və bir də gözəl səs.



**Yıldız Usmanova,**
Özbəkistanın məşhur müğənnisi

***- Dünyada şöhrətli müğənni olaraq, məqsədinizin neçə faizinə çata bilmisiniz?***

- Söhbət məqsəddən getmir, özündə istedad hiss edən hər bir insan fəxrlə ”mən özbəkəm”, ”mən azərbaycanlıyam” deyə bilməlidir. Avropaya getdim, mənə ingiliscə mahnı oxuduğum üçün pul vermədilər, heç ingiliscə oxuduqlarımı dinləmədilər də. Avropada mənə özbək olduğum və özbəkcə mahnılar oxuduğum üçün hörmət etdilər. Birmənalı olaraq, Avropada şəxsiyyətim və milli kimliyim mənim valyutam sayılırdı və bunun qədri-qiyməti yoxdur. Orada özbək dilində mahnılar oxudum və sonradan özbək mahnılarını ingiliscə tərcümədə də ifa elədim. Amma heç vaxt ingilis mahnısı oxumadım və belə desək, ingilis olmaq istəmədim. Mən öz kimliyimlə, millətimlə, dilimlə yaşadım, yerdə oturub yemək yemək mədəniyyətimlə qürur duydum, heç vaxt kimsəyə bənzəmədim, əksinə, qoy başqaları mənə bənzəsin.

***- Bizdə də keçmişdə Rəşid Behbudov, pərəstişkarınız Zeynəb Xanlarova, bu gün isə Alim Qasımov Azərbaycanı dünyada məhz dediyiniz öz xüsusi özəllikləri ilə tanıdıb və tanıtmaqdadır...***

- Bu gün gün milli müstəvidə bəzi fərqliliklər etdikləri üçün gəncləri günahlandıra, onlara ”bunu səhv etmisən” deyə bilmərik. Günahkar məhz böyüklərdir, o cümlədən mədəniyyət nazirlikləri. Hər şey əmrlə, kağızla ola bilməz, onlar psixoloq rolunu oynamalıdırlar. Keçmişdə xaricə qastrol səfərinə gedəcək sənət adamları ilə ”KQB” məşğul olurdu, bu gün isə həmin gənc müğənniləri məhz Mədəniyyət Nazirliyinə çağırmalı, soruşmalıdırlar ki, ”övladım, xaricə gedirsən, özünü və millətini, dövlətini nə qədər tanıyırsan”. Gənc sənət adamları ilə bax belə, insan kimi danışmaq lazımdır, hər şeyi zorakılıqla həll etmək mümkün deyil. Hər bir müğənninin çiyinlərində mənsub olduğu xalqın məsuliyyəti var. Sən kimsən, azərbaycanlısan və ya özbəksən, sənin arxanda böyük bir xalq var. Hər bir sənətçinin buraxdığı ən kiçik səhv belə onun xalqının adına yazılar, deyərlər ki, bunlar belə xalqmış, elə xalqmış... Onlara deyilməlidir ki, məsələn, Avropaya gedirsən, yaxşı yol. Sənin çox gözəl səsin var, amma özünlə apardığın mədəniyyət sənin yox, xalqınındır, onu uca tut və qoru. Biz sovetlər birliyində doğulub-böyüdük. O vaxt şərait başqaydı, aramızda birlik vardı, amma qapalıydıq. İndi dünyaya açılmışıq, hər yerdən o qədər informasiya gəlir ki...

***- Milli mədəniyyətimizi, musiqimizi dünyada necə məşhurlaşdıraq?***

- Avropada yaşadığım illərdə bir münasibəti kəşf elədim. Onlar bizim musiqimizə, milli mədəniyyətimizə çox vurğundurlar. Çalğı alətlərimizə çox həvəs göstərirlər və hətta pul xərcləyib alırlar da. Avropada sistem bir az fərqlidir. Bizdə də onlardakı kimi prodüsser mərkəzləri olsa dərdimiz nəydi. Onlarda çoxlu festivallar filanlar olur və elanlarını atırlar həmin prodüsser mərkəzlərə. Müğənnilər də müraciət edər, tədbirlərə qatılıb tanınar və dolayısıyla öz mədəniyyətlərini, musiqilərini təbliğ edər. O vaxtlardan Azərbaycandan yalnız pianoçu Əzizə Mustafazadə var bu işdə, ölkəsini, milli musiqisini tanıdır dünyada. Yaxud özbək sənətçilərdən Yıldız olub həmin festivallarda. Amma tək Əzizə və ya Yıldızla bir şey etmək olmaz, bütün sənətçilər bu işdə rol almalıdırlar.

***- Bunun üçün vasitəçilərə, siz deyən prodüsserlərə ehtiyac var...***

- Prodüsser mərkəzləri mütləq yaradılmalıdır. Müğənnilərin albomları, diskləri ora gedir və satılır. Hər bir prodüsser mərkəzi öz siyahısını qoyur ki, bizdə belə müğənnilər, bu cür mahnılar var və sair. Yəni reklamını edir. Beynəlxalq festivalların təşkilatçıları və sair də onlara sifariş edir ki, bizə mahnılardan ibarət disklər, albomlar göndərin, baxaq, dəyərləndirək və nəticədə onlar bəyəndikləri müğənniləri konsertlərə, festivallara dəvət edirlər. Bir məsələ də var: müğənni burada öz konserti ilə 50 min-100 min qazana bilər, amma beynəlxalq festivallara pul marağı ilə baxılmamalıdırlar. Ola bilər orda 500 manat qazansın, amma dünyaya açılması üçün çox vacibdir iştirakı. Çünki bir dəfə, iki dəfə, dünyada tanınacaq, özündən sonra gələnlər də hər zaman deyəcək ki, dünyaya yolumuzu bu açdı.

***- Siz necə çıxdınız həmin festivallara?***

- Özbəkistandan məni göndərəndə əvvəl qorxdum, dedim vallah mən heç kimi tanımıram, nə edəcəm orda. Bir dəfə festival oldu Qazaxıstanda, ora göndərdilər. Ay Allah nə edəcəm, dil bilmirəm, kimisə tanımıram, hər şey sıfır. Amma elə oldu ki, festivalda tanışlarımla görüşdüm. Allahın işini görürsünüz, özləri gəlib məni tapdılar. Beləliklə, yollarım açıldı, Avropada milyonlarla diskim satılıb. Allaha qurban olum, heç nədən peşman deyiləm, özbək xalqının adını-şərəfini aparmalı olduğum yerədək apara bilmişəm.

***- Dünya şöhrətli sənətçisiniz, ancaq yaşadığınız bir sıra siyasi təlatümlər barədə eşitmişik. Bu haqda nə deyərdiniz?***

- Əvvəl çox böyük siyasi problemlərim vardı. Allaha çox şükür, onlar artıq geridə qalıb. Yeni prezidentimiz Şavkat Mirziyoyev xalq arasından çıxdığı üçün xalqı çox yaxşı başa düşür. Çünki o, özü də bir çox çətinliklər yaşayıb. Şükürlər olsun, indi hər şey yaxşıdır və hamımız birlikdə çalışırıq.

***- Problemlər niyə yaranmışdı?***

- Çünki mən ədalətli biriyəm, amma o vaxt həqiqəti eşitmək istəmirdilər. Bu yerdə bir məqamı da vurğulayım ki, problemləri padişahlar, prezidentlər deyil, onları əhatə edənlər yaradırlar. Məndən bütün insanlara məsləhət: heç vaxt prezidentlərdən inciməsinlər, onların çevrəsindən küssünlər. Məni nə qədər təhdid etdilər. Vətəndən uzaqda 10 il yaşamaq asan deyil. Təsəvvür edin, evimə dönmək istədim, təyyarə hava limanına enən kimi qollarımı qandalladılar, gəldiyim təyyarə ilə geri qaytardılar. Bu illər ərzində çox əzildim, amma sınmadım, bərkidim, toparlandım və çətinlikləri geridə qoydum. Sonunda öz-özümə fikirləşdim ki, prezident necə insandır, axı o pis deyil, ətrafındakılar pisdir. Bir məqamı da diqqətinizə çatdırım ki, hər ziyanın sonunda bir xeyir var. Özbəkistanda incitdilər, Türkiyəyə getdim. Mən Niderland kraliçası Beatrisin pərəstiş etdiyi müğənni oldum. Niderlanda bulaşıq yumağa getdim, Beatrisin sevimlisinə çevrildim (ucadan gülür).

***- Yaxşı şansınız varmış...***

- Mən buna şans da deməzdim, alın yazısına inıram, amma düşünürəm ki, irəli getmək üçün utanmayacaqsan, qorxmayacaqsan. Türkiyəyə getdim, Sərdar Ortac, başqaları dostlarımdır, amma heç kimin qapısını döymədim. Soruşdular gələndə niyə xəbər vermədin, dedim xəbər versəm nə olacaqdı, problemlərimi həll edəcəkdiniz? Orada öncə Türkiyə türkcəsini öyrəndim, türk millətinin adət-ənənələrini, nə düşündüyünü, nə istədiyini bildim. Orada sənət aləminin qaydaları fərqlidir - əsas yük prodüsserlərin çiynindədir, hər işi onlar həll edir. Bütün bunlara baxmayaraq mən qısa vaxtda öz yerimi tapdım, hər kəsin hörmətini qazandım, top onluqda ilk beşliyə də düşdüm. Orxan Gəncəbay mənə çox dəstək oldu, gələcəyə ümidləndirdi, hər şey yaxşı olacaq dedi. Mən onları heç zaman unutmayacam.

***- Ömrünüzün xeyli hissəsini məcburən də olsa, xaricdə keçirdiniz. Sizcə qürbətdə keçən illər karyeranızda nə kimi rol oynayıb?***

- Birdən-birə qürbətə düşdüm, nə edəcəyimi bilmirdim. Bayaq dediyim kimi, vətənimə, tikib-qurduğum evimə gələ bilmirdim. Amma bütün məhrumiyyətlərə dözüb dayandım. Reallıqları qəbul etdim. Etməsəydim ölərdim orada. Geriyə baxmadım, inkişaf etdim, tanındım, mükəmməl müğənni kimi, insan kimi, siyasətçi olaraq yetişdim.

✍ **Vüsal Tağıbəyli**

## "Bölgələrə daha yaxın" səfərləri uğurla yekunlaşdı



**İyul ayının 12-dən etibarən regionlarımızı ”Bölgələrə daha yaxın” şüarı altında gəzən Azercell səfərlərini uğurla tamamladı.** Özündə silsiləvi tədbirləri cəmləşdirən kampaniya 2 həftə boyunca davam etdi. Xaçmaz, Quba, Şəki, Gəncə, Bərdə, Cəlilabad da daxil olmaqla ümumilikdə 14 bölgəni əhatə edən tədbirdə abunəçilərə yeni məhsullar və xidmətlər təqdim olundu. Kampaniya çərçivəsində sonuncu görüş isə iyul ayının 25-də Füzuli rayonunda baş tutdu.

Aksiyanın davam etdiyi müddət ərzində bölgədəki abunəçilər ilə sıx ünsiyyət yaradılaraq onların bütün sualları cavablandırıldı. Azercell tədbir ziyarətçilərini maraqlı təkliflər ilə tanış etdi, qonaqlar üçün müxtəlif oyunlar keçirildi və hədiyyələr paylanıldı.

Kampaniya müddətində lider mobil operator rəsmi Instagram səhifəsində də müxtəlif müsabiqələr keçirərək izləyicilərinə internet paketləri qazanmaq imkanı yaratdı.

Ölkənin lider mobil operatoru Azercell abunəçilərini yeni layihələri ilə sevindirməyə davam edəcək!

## Bakcell Azərbaycanın ən sürətli mobil şəbəkəsidir




**Bakcell növbəti dəfə Azərbaycanın ”Ən sürətli mobil şəbəkəsi”* kimi tanınıb. Bu mükafat mobil və genişzolaqlı şəbəkələrin intellektual təhlili, mobil tətbiqetmələrin və texnologiyaların sınaqdan keçirilməsi üzrə dünya lideri olan Ookla® şirkətinin müstəqil təhlili nəticəsində verilib.**

Mükafat dövründə okla® Azərbaycanda ən sürətli mobil şəbəkəni müəyyən etmək üçün 2022-ci ilin I və II rübü ərzində ölkənin mobil rabitə istifaçiləri tərəfindən Speedtest® iOS və Android mobil tətbiqetmələri vasitəsilə keçirilmiş 71 mindən çox testi müqayisə edib. Nəticədə ”Bakcell”in mobil şəbəkəsi bu ilin I və II rübü üzrə ən yüksək yükləmə (download) və ötürmə (upload) sürəti nümayiş etdirib.

”Ookla tərəfindən təqdim edilən ”Speedtest mükafatı” müstəsna internet sürəti və əhatə dairəsini təmin edən seçilmiş şəbəkə operatorları üçün nəzərdə tutulub. ”Azərbaycanın ən sürətli mobil şəbəkəsi” mükafatını Bakcell şirkətinə böyük məmnuniyyətlə təqdim edirik. Bu mükafat şirkətin 2022-ci ilin I və II rübləri ərzində göstərdiyi misilsiz nəticələrin təsdiqidir. Nəticələr abunəçilər tərəfindən ”Speedtest” proqramı vasitəsilə edilən sınaqların ətraflı təhlili vasitəsilə əldə olunub”, deyə Ookla şirkətinin baş icraçı direktoru Doug Suttles bildirib.

Qeyd edək ki, Ookla şirkəti 2018, 2019-cu və 2021-ci ildə Bakcell şəbəkəsini Azərbaycanın ”Ən sürətli mobil şəbəkəsi” adlandırıb.

Bakcell Azərbaycanda eSIM və VoLTE texnologiyalarını tətbiq edən ilk mobil operatordur.

## ELAN

Açıq hərrac: Hərracı keçirən ”Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi” MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. Hərrac 19.08.2022-ci il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: ”Sabunçu Elmi İstehsalat Birliyi” TASC-yə məxsus 04/1 Lot üzrə İlmetsan qaldırıcı kran 1 ədəd 27 000 man., 04/2 Lot üzrə 2 ədəd hava tutumu B-25 (v-8, 0m3) 1 ədəd 3500 man., üm/qiy: 7000 man., 04/3 Lot üzrə 1 ədəd körpülü kran KME (yük/q 10 ton)-19000 man., 04/4 Lot üzrə 3 ədəd körpülü kran KME (yük/q 5 ton) 1 ədəd 15000 man. üm/qiy: 45000 man., 04/5 Lot üzrə 1 ədəd körpülü kran KME (yük/q 7ton) 18000 man., 04/6 Lot üzrə 1 ədəd çatmalı kran KK-5(yük/q 5 ton) 23000 man.., 04/7 Lot üzrə 5 ədəd sınaq stendi 1 ədəd 350 man., üm/qiy: 1750 man., 04/8 Lot üzrə 2 ədəd metal əridmə sobası 1 ədəd 17000 man., üm/qiy: 34000 man., Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 10% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: ”Expressbank” ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az; https://www.facebook.com/

***

Açıq hərrac: Hərracı keçirən ”Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi” MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra şöbəsi. Hərrac 19.08.2022-ci il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: 05/1 Lot üzrə Abdullayev Şahmar Rəcəb oğluna məxsus Bakı şəh., Sabunçu ray., Ramana qəs., E.Məhərrəmli küç., dalan 6, ev 2, mənzil 12 (2 mərtəbəli binanın 2-ci mərtəbəsi, 3 otaq, üm/s 52,75 kv.m, təmirliliyi orta) - 35 000 man., Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: ”Expressbank” ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az; https://www.facebook.com/

# Uşaqlarda özünəinam artırılmalıdır

***Son zamanlar cəmiyyətimizdə yaşanan sosial problemlər, pandemiya, postmüharibə dövrü, qlobal qiymət artımı və s. cəmiyyətimizin gündəlik həyatına da təsirsiz ötüşmür, müəyyən neqativ məqamları ortaya çıxarır. Bu məsələdə ən çox zərər çəkənlər isə gənclərimizdir. Bu istiqamətdə "Həftə içi" qəzetinə müsahibə verən Azərbaycan Millli Elmlər Akademiyasının əməkdaşı, "Sübhnur" Tədris Mərkəzinin təsisçisi və direktoru Gülnarə Hüseynova maraqlı fikirlər söyləyib.***

## Müzakirə

***- Gülnarə xanım, siz ailə sevgisindən uzaq qalan uşaqlara, yaşlı insanlara müəyyən yardımların olunması ilə bağlı bir çox sosial layihələrin həyata keçirilməsində iştirak etməklə yanaşı, xeyriyyə tədbirlərinin könüllü təşkilatçısısınız. Sizi bu cür xeyriyyə tədbirləri keçirməyə sövq edən səbəb nə idi?***

- Mən Akademiyada Həmkarlar Təşkilatının üzvüyəm. Əvvəllər də institut əməkdaşları ilə birlikdə bir çox uşaq evlərində olurduq. Uşaq, qocalar evlərinə sovqatlar aparan qrupda fəal şəkildə iştirak edirdim. Sonralar fikirləşdim ki, mən bu layihəni İnstitutdan kənarda, öz şəxsi çevrəmdə tanıdığım insanlarla da birlikdə edə bilərəm. Düzü, o evlərdə olan uşaqların, qocaların hər səfərimizdə bizə necə ümidlə baxdıqlarını görəndə, belə görüşlərin mütəmadi, daha çox, daha əhatəli təşkilatlar müstəvisində həyata keçirilməsini zəruri saydım. Müşahidələrimdə və apardığım söhbətlərdən gördüm ki, işdən kənarda çevrəmdə olan insanlar da bu prosesə qoşulmaq istəyirlər. Beləcə, institutdan kənarda insanlara yardım etmək istəyən şəxsləri bir araya gətirdim. Könüllü olaraq öz hesabımızla humanitar, xeyriyyə işləri həyata keçirdik.

Bir hadisə mənə xüsusilə stimul verdi. 2018-2019-cu ildə şəhid ailələri qalan yataqxanada oldum. Mən özüm onlara yaxınlaşdım, görüşlərimiz oldu. O qadınlar gözləriyaşlı məni qucaqlayıb, "Nə yaxşı, bizim də qapımızı döyüb bizim halımızı soruşan, eşidən oldu", - deyirdilər. O qadınlar, şəhidlərin ailə üzvləri deyirdilər ki, onlara heç nə lazım deyil, sadəcə bir şəhid ailəsi kimi qapılarının döyülüb, hallarının soruşulması, dərdlərinə qulaq asmağımız onları ruhlandırır, yaralarını sarıyır. Mən o zamanlar həmin insanlara bacardığım qədər, kiçik məvaciblə olsa da, müəyyən sovqatlar apardım. Mənimlə birlikdə ətrafımda olan qadınlar, valideynlər, xeyriyyəçi insanlar belə görüşlərdə çox iştirak etdi. Əslində, bu cür paylaşmalar, insanların bir-birlərinin dərdinə şərik olması, ondan "Necəsən?" - deyə soruşulması özü böyük bir vəhdəti yaradır. Gələcəyimuz üçün çox böyük mənəvi əhəmiyyəti olan örnək olur. İnsanlar nə qədər çox paylaşarsa, nə qədər bir-birlərinə qarşı diqqətli olarsa, sevgi bir o qədər çoxalar. Məncə, bu cür könüllü ianələr, xeyriyyə işləri çoxalmalıdır. Bəlkə də hər rayonda bir qədər diqqətdən kənar qalan insanlar qayğı, sevgi ilə əhatələnsə, heç kəs ümidsiz qalmaz...

Biz sonralar bir çox tədbir keçirdik. Talassemiya, leykoz xəstəsi olan uşaqlara yardımlar etdik. Eyni zamanda, paytaxtda bir sıra uşaq evlərinə, uşaq-ana sığınacaqlarına yardımlar apardıq. Onlarla görüşlərdə insanların hansı problemlərlə, hansı dərdlərlə üz-üzə qaldığını gördük. Bir çox hallarda "Maddi dəstəklə onları çətin durumdan çıxarmaq olar", - deyə düşünürəm. Hər bir insanın qəlbində humanistlik, yardımlaşmaq istəyi olsa, çox gözəl olar. Biz uşaqlara yardımlar aparanda gördük ki, onları adi bir hədiyyə ilə sevindirmək, üzlərini güldürmək mümkündür. Əlbəttə ki, hər bir insana diqqət, qayğı, sevgi lazımdır. Biz də onu o uşaqlara, qocalara verməkdə xəsislik etmədik.

***- Bəzən deyirlər ki, əvvəllər insanlar bir-birlərinə qarşı daha diqqətli, yardımlaşmada daha aktiv idilər. İndi insanların passivləşdiyi deyilir. Bu cür yanaşmalar nə ilə bağlıdır?***

“

*Valideynlərə həmişə tövsiyə edirəm ki, birinci növbədə uşağınıza bilik verin*

- Yəqin ki, bu məsələnin köklü səbəbləri var. Bizim xalqımız istiqanlıdır və humanistir. Uzun illərdir torpaq itkisi ilə çox faciələr yaşadıq. Bir qədər dərdlərdən qovrulduq. Təbii ki, başqa səbəblər də var.

Adi bir misal: bəzən görürsünüz ki, avtobusda sürücü siqaret çəkir. Buna etiraz edirəm, amma maraqlıdır ki, başqa heç kim narazılığını bildirmir. Bilmirəm, insanar sanki robotlaşıb, heç kəs neqativ məsələ barədə danışmaq istəmir. Sanki nədənsə çəkinirlər, yaxud belə hallar sadəcə çəkilərək sosial şəbəkələrdə paylaşılır.

Hesab edirəm ki, kömək, yardımlaşmaq hissimiz ölməyib. Əvvəllər bizdən böyüklər bunu edibsə, indi biz də edə bilərik.

Bir məqamı da qeyd etmək istərdim: çox təəssüf ki, bir-birimizin uğurunu görəndə xoş söz deməyə xəsislik edirik. "Çox sağ ol", "Nə gözəl", "Afərin", "Buna davam et" demirik. Bu stereotipi yox etməliyik.

***- Gülnarə xanım, necə hesab edirsiniz, iqtisadi böhran, müharibələr, pandemiya, sosial problemlər fonunda insanların daha çox nəyə ehtiyacı var?***

- İnsan hər zaman sevgiyə, diqqətə, qayğıya, nəvazişə ehtiyac duyur. Bizim ən böyük çatışmayan cəhətimiz budur...

Qeyd etdiyim kimi, mən Tədris Mərkəzinin rəhbəriyəm, 2020-ci ildə açmışam. İlk missiyam həmin mərkəzdə uşaqların istedadlarını üzə çıxarmaqdır.

İnsanların içindəyəm və görürəm. Bəzi qeyd etdiyim neqativlər bizim gündəlik həyatımızda da var.



*Gülnarə Hüseynova*
"Sübhnur" Tədris Mərkəzinin təsisçisi və direktoru

Bir çox hallarda valideynlərimiz onun davasını edir ki, mənim uşağım mütləq oxumalıdır. Yaxud, istedadı oldu-olmadı, deyir ki, filankəsin uşağı rəqsə gedir, sən də getməlisən və sair. Sanki valideynlər də bir yarışa çıxıblar. Axı sən uşağına niyə cəza verirsən? Zatən Allah hər bir uşağı fitri istedad yaradıb. Sən öz uşağını azad, özgüvən böyüt, yetər. Ona "Sən hər şeyi bacaracaqsan, sən hər şeyə qaidirsən" deməklə onu ruhlandır. Sən uşağının istedadını ortaya çıxara bilmirsənsə, qoy bunu məktəb üzə çıxarsın. Bütün hallarda hər birimiz şükür etməliyik, pozitiv olmalıyıq. Heç nəyə neqativ olmalı deyilik.

***- Maraqlıdır, indiki gənclər dəyərlərə, ənənələrə necə yanaşırlar?***

- Mən əvvəllər gənclərin ağsaqqallara olan münasibətinə çox yaxşı baxırdım. Əgər müəllim mənə bir iş deyərdisə, onu sevə-sevə yerinə yetirirdim. İşimə aid olmasa belə onu edirdim. Sonradan müşahidə etdim ki, bəli, gənclərimiz dəyişib. İndiki gənclərə bir söz demək olmur. Əgər xahiş etsən ki, bu kitabı kitabxanaya apar, sənə deyəcəklər ki, bu mənim işim deyil. Bunun üçün qarşılıq istəyir. Deyim ki, bu dəqiqə 50 faiz gəncimiz çox sosialdır. Yəni onlar deyirlər ki, artıq liderəm, yəni sənin 40 yaşında etdiyini mən 20 yaşında edəcəyəm. Tutaq ki, mərkəz də açacağam, hər bir şey edəcəyəm, bir sözlə aktivdirlər. Əlli faiz gəncimiz isə özünəqapanıqdır. Onlar heç kimi düşünmürlər, pozitiv düşünmürlər. Ola bilər ki, belə gənclər ailədə nəvaziş, qayğı görməyiblər. Bir tərəfdən də pandemiya bu özgüvəni azaltdı. Bir çoxlarının bilik bacarıqları üzə çıxdı. Ona görə də valideynlərə həmişə tövsiyə edirəm ki, birinci növbədə uşağınıza bilik verin və qoyun övladınız özünə güvənsin.

Bir çox hallarda biz xəbərlərdə gənclərin intihar etməsi hadisələri ilə rastlaşırıq. Mən bunun da səbəbini öz güvənin olmaması ilə əlaqələndirirəm. Bir tərəfdən də qidalarımız, hava zəhərlənməsi də buna təsir edir.

Bu yaxınlarda zəngilanlıların Ağalı kəndinə köç oldu. İnanın ki, bu dədqiqə desələr ki, Gülnarə xanım gedin orda tədris mərkəzi açın, bunu sevə-sevə edərəm. Amma bizdə kontingent şəhərin mərkəzində olmaq istəyir.

Özgüvəni aşağı olan insan uğurlu ola bilmir. İnsan o zaman uğurlu ola bilir ki, biliyi potensialı ortadır, amma özgüvəni aşıb-daşır. Bəli o insan "İşin arxasınca gedirəm, bu gün alınmasa da sabah alınacaq" deyir. Bu insanın daxilində özgüvən var.

Hər iş şüurla əlaqədardır. İntiharın səbəbi odur ki, insanlar özlərinin gələcəyini görə bilmirlər, yaxud kimdənsə asılıdırlar.

Bu yaxınlarda bizim gənc alimimiz (xəyanatə uğramış ailə səbəbi üzündən) həblərdən istifadə edərək intihar etdi. Mən bunu yaxşı qarşılamadım. Axı sən layihələrini, xalqın, çevrən üçün edə biləcəyin müsbət işlərini yarımçıq qoydun. Onun bu özgüvənsizliyi, inamsızlığı faciəyə gətirdi. Bir alim özünə çıxış yolu tapmalıydı. Ümumiyyətlə, həmişə bir çıxış yolu var, intihar heç də çıxış yolu deyil.

***- Gənclərə nə tövsiyə edərdiniz? Ümumiyyətlə, ictimai mühitdə görünən insan necə olsun?***

- Hər bir insan nümunəvi olmalıdır. İnsanlar bir-birlərinə oturuşu, duruşu, nəvazişi, diqqəti, ədəb-ərkanı ilə nümunə olmalıdır. Bunu oxumaqla, kitabla da əldə etmək olmur. Belə deyilir ki, birinci növbədə insanın daxili aləmi zəngin olmalıdır. Zənginlik pul, var-dövlətlə seçilmir. Sən bir toy məclisinə gedəndə qızıl, zinət əşyaları taxa bilərsən, amma bu sənə heç nə verməz. Daxilin zəngin olarsa, sənin nurun zəngn, dolu bir insan kimi göstərər. İnsan özünəetibarı, sevgini də illərlə qazanır. Nümunəvi olmaq lazımdır. Danışığınla əməlin üst-üstə düşməlidir. Cəmiyyəti də insanlar özləri formalaşdırırlar. Bu proses ailə, məktəbəqədər hazırlıq, ətraf mühit, dərsliklər, öyrənməklə, özgüvənlə inkişaf edir... Uşaqlar, övladlar öz ailələrinə, ətraflarına baxıb tərbiyə alacaqlar...

✍ **Tahirə**

## HƏFTƏ REYTİNQ

**Həftənin BAŞÇILARI**



Prezident İlham Əliyev üç rayona yeni icra başçısı təyin edib. Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov vəzifəsindən azad olunaraq onun yerinə Araz Əhmədov gətirilib. Başçı postu boş olan Göygöl və Lerik rayonlarına isə müvafiq olaraq Elvin Paşayev və Əkbər Abbasov təyinat alıb.

**Həftənin KÖÇÜ**



Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsi başa çatıb. İyulun 25-də Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən dördüncü köç karvanı yola salınıb. Otuz ilə yaxın yurd həsrəti ilə yaşayan daha 10 ailə - 58 nəfər yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşıblar.

**Həftənin CAVABI**



"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində "Sürix"lə (İsveçrə) keçiriləcək cavab matçı üçün təşkil edilən mətbuat konfransında maraqlı anlar yaşanıb. Sürixdəki mətbuat konfransında yerli jurnalistlərdən biri Qurbanova rus dilində sual verib və qeyd edib ki, rus dilində danışa bildiyini eşidib. Baş məşqçi isə cavabında "Rusca bilirəm, amma Azərbaycan dilində cavab verəcəyəm" deyib. Sualı dinləyən çalışdırıcının cavabı Azərbaycan dilində olub.

**Həftənin HÖKMÜ**



İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı Vilyam Hacıyevə hökm oxunub. O, 12 il müddətə azadlıqdan məhrum edilib. Hökm bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Paşayevin sədrliyi ilə keçirilən iclasda elan olunub. Bundan başqa sabiq başçının 5 milyon 344 min manatlıq əmlakının da müsadirəsinə və dövlət nəfinə keçirilməsinə qərar verilib.

**Həftənin TƏHDİDİ**



İsrail nüvə silahı istehsalını məhdudlaşdırmaq məqsədilə İrana qarşı güclü zərbələr endirə bilər. Bu barədə İsrailin müdafiə naziri Beni Qants "Kanal 13"ün efirində verdiyi müsahibədə deyib. O vurğulayıb ki, indi İran nüvə silahı əldə etmək cəhdləri ilə təkcə İsrail üçün deyil, bütün dünya üçün təhlükədir. "Sonda biz İran atomunun qarşısını almaq üçün güclü zərbə endirə bilərik", - Qants bildirib.

**Həftənin DAYISI**



Puerto-rikalı məşhur müğənni Riki Martinin cinsi qısnama ittihamı ilə bağlı məhkəmə prosesi baş tutub. Məlumata görə, ulduz müğənni məhkəmədə qalib gəlib. Xatırladaq ki, iyulun əvvəli Riki Martinin bacısı oğlu Dennis Yadiel Sançes pop ulduzu fiziki zorakılıqda ittiham edib. 21 yaşlı Dennis Yadiel Sançesin sözlərinə görə, müğənni dayısı tərəfindən psixoloji və fiziki zorakılığa məruz qalıb. O, bildirib ki, dayısı ilə münasibətləri təqribən 7 ay davam edib.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Əlil şəxslər tamaşada baş rolları ifa etdi**

“

## Kraliça Beatrisin sevimli ulduzu oldum...

**Yıldız Usmanova,**
Özbəkistanın məşhur müğənnisi

*Azərbaycan musiqisi hər zaman öndə olub, sədaları hər yerdə eşidilib*

►► Səh. 7

## STATİSTİKA



**2022-ci il iyulun 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 18 mlrd. 320 mln. manat təşkil edib.**

Bu, həmin ilin əvvəlinə olan göstəricidən 9,9% çoxdur. Ötən ilin eyni dövrü ilə müqayisədə isə kredit qoyuluşları 23,3% artıb. Qeyd edək ki, kredit qoyuluşları 2021-ci ilin ilk yarısında 14 mlrd. 856,9 mln. manat, bu ilin əvvəlinə isə 16 mlrd. 659.1 mln. manat təşkil edib.



►► Səh. 7

## Psixoloji zorakılıq - onu necə sübut etmək olar?